

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 41 (883) ■ 25 oktyabr 2017 www.vergiler.az Qiymәti: 60 qəp.

# Prezident İlham Əliyev: *«Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz»*

**Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8 Zirvə görüşündə xüsusi qonaq qismində iştirak etmək üçün İstanbula səfər edib.**




Oktyabrın 20-də İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) «Əməkdaşlıq yolu ilə imkanları artırmaq» devizi altında IX Zirvə görüşü keçirilib. İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının - D-8-in baş katibi Seyid Ali-Mohammad Musəvi Zirvə görüşünü açıq elan edərək tədbirin əhəmiyyətindən danışıb. D-8 təşkilatının sədri, Pakistanın Baş naziri Şahid Xaqan Abbasi qurumun müasir dövrdə fəaliyyətinin daha da genişləndirilməsində üzv ölkələrin səylərinin gücləndirilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, Pakistan D-8 təşkilatına sədrliyi dövründə bu qurumun möhkəmlənməsinə və inkişafına çalışıb. Məhz bu dövrdə D-8 BMT-də müşahidəçi statusu əldə edərək beynəlxalq səviyyədə mövqeyini gücləndirib. Pakistanın Baş naziri deyib ki, qurumun üzvləri 20 il ərzində iqtisadiyyat, ticarət, nəqliyyat, turizm və digər sahələrdə əlaqələri inkişaf etdiriblər. Baş nazir Şahid Xaqan Abbasi D-8 təşkilatına sədrliyin Pakistandan Türkiyəyə keçdiyini elan edib.

Təşkilatın yeni sədri, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında üç qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq, dünyada baş verən gərginliklər fonunda Zirvə görüşünün keçirilməsinin önəmini qeyd edib. Son illər müsəlmanların yaşadıqları bölgələrdə baş verən münaqişələrin, terrorizmin, təbii fəlakətlərin ciddi fəsadlarla nəticələndiyini deyən Türkiyə Prezidenti təəssüflə bildirib ki, qlobal ədalətsizlik azalmaq əvəzinə, daha da artır. Dünyada İslamla terrorizmin əlaqələndirilməsi cəhdlərinin, islamofobiyanın və ksenofobiyanın artdığını, miqrant böhranının dərinləşdiyini bildirən R.T.Ərdoğan vurğulayıb ki, D-8 ölkələri gənc və dinamik artan əhaliyə, zəngin təbii sərvətlərə, sürətli inkişafa malikdir. O, üzv ölkələrin bu potensialından tam səmərəli istifadə olunması nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin hazırkı 100 milyard dollardan qısa müddətdə 500 milyard dollara çatdırıla biləcəyini qeyd edib. İqtisadiyyat, ticarət, nəqliyyat, müdafiə sənayesi, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğulayan Türkiyə Prezidenti D-8 üzvlərinin sayının artırılmasının, qarşılıqlı ticarətin milli valyutalarla aparılmasının təşkilatın daha da güclənməsinə imkan yarada biləcəyini bildirib.

Zirvə görüşündə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana Zirvə görüşünə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib. Dövlətimizin başçısı qeyd edib ki, bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun bariz nümunəsidir.

**Azərbaycan İslam həmrəyliyinə xüsusi əhəmiyyət verir və bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparır**

Prezident İlham Əliyev tədbir iştirakçılarının diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb edərək bildirib ki, Ermənistan 25 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqlarını - Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edib: «Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını törədib. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilib, onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və azərbaycanlı mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir. Ötən ilin aprelində təmas xəttində Ermənistanın silahlı hücumu nəticəsində mülki şəxslər və hərbçilər həlak olub. Yüzlərlə yaşayış evi dağıdılıb. Azərbaycan Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə aldı, ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Bundan sonra Ermənistan tərəfindən tamamilə dağıdılmış Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu. 150 evdən ibarət bu qəsəbədə məktəb, tibb məntəqəsi və məscid tikildi. Bu məscid ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəridir».

Dövlətimizin başçısı qeyd edib ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır və bu münaqişə BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq.

Ölkəmizin İslam həmrəyliyinə xüsusi əhəmiyyət və töhfə verdiyini deyən Prezident İlham Əliyev bildirib ki, biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq: «Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz».

Azərbaycanın beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısı olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev hazırda tərəfdaş ölkə və şirkətlərlə birgə «Cənub Qaz Dəhlizi» layihəsinin icra edildiyini xatırladıb. Qeyd edib ki, bu, dünyanın ən böyük infrastruktur layihələrindən biridir: «Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP qaz kəməri üzrə saziş 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında İstanbul şəhərində imzalanmışdır və bu kəmər gələn il istifadəyə veriləcəkdir. Tezliklə rəsmi açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa yol olacaqdır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına böyük sərmayələr qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaqdır».

Zirvə görüşündə D-8 Şurasının 16-cı, 17-ci və xüsusi sessiyalarının hesabatları dinlənilib, gündəlikdə duran məsələlər müzakirə olunub. IX Zirvə görüşünə yekun vuran Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan D-8-in dünyada sülhün, sabitliyin və rifahın inkişafına bundan sonra da töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonra D-8 təşkilatı ilə İslam İnkişaf Bankı arasında Anlaşma Memorandumu imzalanıb.

## Əlaqələrin genişləndirilməsi üçün münbit şərait var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının baş katibi Əbdüllətif bin Raşid Əl-Zəyyəninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Əbdüllətif bin Raşid Əl-Zəyyəni Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv dövlətlərin rəhbərlərinin salamlarını dövlətimizin başçısına çatdıraraq deyib ki, mövcud əlaqələrin səviyyəsini yüksək qiymətləndiririk və əlaqələrimizin daha da möhkəmləndirilməsində maraqlıyıq. O, Azərbaycan-Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının biznes-forumunda iştirak edəcəklərini məmnunluqla qeyd edib, tədbirin üzv dövlətlər arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Təşkilata üzv dövlətlərlə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyini, bu dövlətlərlə güclü siyasi münasibətlərimizin mövcud olduğunu deyən Prezident İlham Əliyev yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişləndirilməsi baxımından önəmini vurğulayıb. İqtisadi əməkdaşlığımız üçün də yaxşı imkanların mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizdə investisiya qoyuluşu üçün əlverişli şəraitin olduğunu, bu baxımdan Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv ölkələrin Azərbaycana investisiya qoyması üçün yaxşı imkanların mövcudluğunu diqqətə çatdırıb.

## Polşa Azərbaycanla əlaqələri genişləndirmək niyyətindədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Polşa Respublikasının xarici işlər naziri Vitold Vaşçikovskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın və əldə edilmiş uğurların siyasi, iqtisadi, qarşılıqlı ticarət, investisiya, enerji, nəqliyyat sahələrində daha da genişləndirilməsinin önəmini qeyd edib. Vitold Vaşçikovski Prezident İlham Əliyevin Polşaya səfərini məmnunluqla xatırlayaraq bu səfərin əlaqələrimizin möhkəmləndirilməsi baxımından böyük önəm daşıdığını qeyd edib. Polşanın xarici işlər naziri bildirib ki, ölkəsi Azərbaycan ilə əlaqələri genişləndirmək və inkişaf etdirmək niyyətindədir. Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlığa toxunan Vitold Vaşçikovski Avropa İttifaqının xarici siyasətində bu istiqamətin xüsusi əhəmiyyət daşıdığını və Avropa İttifaqının əlaqələrin genişləndirilməsində maraqlı olduğunu qeyd edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırkı vəziyyəti ətrafında fikir mübadiləsi aparılıb, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, Cənub Qaz Dəhlizinin və nəqliyyat dəhlizlərinin yaradılmasında Azərbaycanın əhəmiyyətli rolu vurğulanıb.

## Əməkdaşlığın perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Ukrayna Baş nazirinin birinci müavini, iqtisadi inkişaf və ticarət naziri Stepan Kubivin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Qəbul üçün minnətdarlığını bildirən Stepan Kubiv Ukrayna Prezidenti Petro Poroşenkonun salamlarını dövlətimizin başçısına çatdırıb. Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Ukrayna Prezidenti Petro Poroşenkonun salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Ukrayna Prezidentinə çatdırmağı xahiş edib.

# Terrora qarşı mübarizə təhlükəsizliyin qarantıdır

Prezident İlham Əliyev oktyabrın 18-də MDB Sərhəd Qoşunları Komandanları Şurasının 78-ci iclasının iştirakçılarını qəbul edib. Dövlətimizin başçısı bildirib ki, sərhədlərin qorunmasının möhkəmləndirilməsi bütün ölkələr üçün böyük əhəmiyyət daşıyır: «Təəssüf ki, bizim ölkələrimizin yerləşdiyi regionlarda, bütövlükdə dünyada risklər artır. Buna görə, əlbəttə ki, səylərin əlaqələndirilməsi, informasiya mübadiləsi və təhlükəli hallara qarşı birgə mübarizə bizim təhlükəsizliyimizin qarantıdır». Azərbaycan Prezidenti bildirib ki, müasir dövrdə beynəlxalq terrorizmə qarşı mübarizə məsələləri başlıca yer tutur: «Bu gün praktiki olaraq bütün beynəlxalq sammitlərdə ekstremizmə, mütəşəkkil cinayətkarlığa, narkotrafikə qarşı mübarizə ən aktual mövzulardır. Təbii ki, bizim ölkələrimiz bütün bu müasir təhdidlərə və təhlükələrə adekvat şəkildə cavab verməlidir. Mən şadam ki, bütövlükdə MDB məkanında vəziyyət kifayət qədər sabitdir. Xüsusilə bugünkü dünyada bir sıra regionlarda çox həyəcanlı proseslər - sabitliyin pozulması, daxili münaqişələr, müharibələr, qanlı toqquşmalar getdiyi vaxtda biz, əlbəttə ki, öz ölkələrimizin təhlükəsizliyini möhkəmləndirməliyik və ölkələrimiz arasında, o cümlədən sizin başçılıq etdiyiniz sahədə əməkdaşlığın daha da möhkəmlənməsinə təkan verməliyik».



Sonra MDB Sərhəd Qoşunları Komandanları Şurasının sədri, Rusiya Federal Təhlükəsizlik Xidməti direktorunun birinci müavini, Sərhəd Xidmətinin rəhbəri Vladimir Kulişov qəbula görə təşəkkürünü bildirib və qeyd edib ki, Şuranın əsas vəzifəsi vətəndaşlarımızın təhlükəsizliyinin təminatına, beynəlxalq terror təşkilatlarına, narkotrafiklərə, qanunsuz miqrasiyaya mənsub şəxslərin keçid kanallarının qarşısının alınmasına, vətəndaşlarımızın və ölkələrimizin təhlükəsizliyində əksini tapan bütün təzahürlərin aradan qaldırılmasına xidmət etməkdir.

Görüşün sonunda V.Kulişov MDB Sərhəd Qoşunları Komandanları Şurasının yaradılmasının 25 illiyinə həsr olunmuş xatirə medalını və hədiyyələri dövlətimizin başçısına təqdim edib.

BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRİ AĞCABƏDİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB — 2

ELEKTRON QAİMƏ-FAKTURA VERGİDƏN YAYINMANIN QARŞISINI ALIR — 3

«AZƏRBAYCANIN RƏQƏMSAL TİCARƏT QOVŞAĞI: İNKİŞAF PERSPEKTİVLƏRİ» — 4

SAHİBKARLIQ SUBYEKTLƏRİNİN QEYDİYYATI ASANLAŞIR — 5

# Vergilər naziri Ağcabədidə vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.**

Oktyabrın 20-də vergilər naziri Fazil Məmmədov Ağcabədi şəhərində Ağcabədi, İmişli, Bərdə, Tərtər, Xocalı və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan məsələlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlər görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlara yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Vergi Apelyasiya Şurasına daxil olan müraciətlər obyektiv araşdırılır

2017-ci ilin 9 ayı ərzində Vergilər Nazirliyinin Apelyasiya Şurasının icraatında 67 müraciət olub. Bu müraciətlərin 10-u əvvəlki ildən qalıb, 57 müraciət isə cari ildə daxil olub.

İcraata götürülmüş müraciətlərdən 16-sı səyyar vergi yoxlamaları, 26-sı kameral vergi yoxlamaları, 7-si operativ vergi nəzarəti, 2-si eyni zamanda həm kameral, həm də səyyar vergi yoxlamaları, 2 müraciət ümidsiz borc məbləğinin silinməsi, 2 müraciət vergitutma metodunun dəyişdirilməsi, 2 müraciət inzibati şikayətin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi, 2 müraciət bank hesablarına qoyulmuş sərəncamların qanunsuz hesab edilməsi, 1 müraciət isə artıq ödəmənin qaytarılması barədə olub. 11 müraciətin tam, 2 müraciətin isə qismən təmin olunması barədə müvafiq qərarlar qəbul edilib. İki vergi ödəyicisində inzibati icraat zamanı aşkar olunan halların araşdırılması məqsədilə növbədənkənar səyyar vergi yoxlaması təyin edilib. 5 müraciət «İnzibati icraat haqqında» Qanunun 80.1.1-ci maddəsinə əsasən təmin edilməyib.

Bir sıra müraciətlər üzrə vergi ödəyicilərinin şikayətlərinin predmeti ilə bağlı cinayət işinin istintaqının davam etməsi, digərlərinin eyni predmet üzrə iddia ərizələrinə məhkəmə qaydasında baxıldığı üçün onların icraatına xitam verilib. Bir qrup müraciətlər isə geri götürüldüyü, Şuranın eyni məzmunlu müraciətlər üzrə müvafiq qərarları olduğu və müraciət predmetinin aradan qalxdığı üçün baxılmadan saxlanılıb.

# Vətəndaş müraciətləri cavabsız qalmır

2017-ci ilin 9 ayı ərzində vergi orqanlarına 74.609 müraciət daxil olub. Onlardan 93,2%-i ərizə, 7,3%-i şikayət, 0,2%-I isə təklifdir. Müraciətlərin 38,7%-i müxtəlif arayışların alınması, 31,6%-i kameral vergi yoxlamaları, 10,4%-i vergi borcları, 2,8%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, 2,5%-i vergi qanunvericiliyinin tətbiqi, qalanları isə digər məsələlərlə bağlıdır. Bütün müraciətlərə vaxtında baxılıb, 70,4%-i müsbət həll olunub.

Yanvar-sentyabr aylarında vergi orqanlarında ümumilikdə 3279 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib.

2017-ci ilin 9 ayı ərzində vergilər naziri tərəfindən 4 bölgədə vətəndaşların səyyar qəbulları keçirilib. Həmin qəbullarda 18 rayonda yaşayan 133 vətəndaş iştirak edib.

# Bəzi normativ sənədlərə dəyişiklik edilib

Bir sıra qanunvericilik aktlarında dəyişiklik edilməsi, qüvvədən düşməsi və yeni müddəaların əlavə olunması ilə əlaqədar vergilər nazirinin əmri ilə bir neçə normativ sənədə dəyişikliklər edilib.

«Dövlət rüsumunun tutulması haqqında hesabat»ın forması və onun tərtib edilməsi Qaydası», «Sadələşdirilmiş verginin bəyannaməsi»nin forması və «Sadələşdirilmiş verginin bəyannaməsi»nin tərtib edilməsi Qaydası», «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nin forması və «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nin tərtib edilməsi Qaydası», «Sadələşdirilmiş verginin bəyannaməsi»nə 2 N-li Əlavənin forması və onun tərtib edilməsi Qaydası», «Torpaq vergisinin bəyannaməsi»nə 1 N-li Əlavənin forması və onun tərtib edilməsi Qaydası» yeni redaksiyada təsdiq edilib.

Vergilər nazirinin 13 yanvar 2017-ci il tarixli əmri ilə təsdiq edilmiş «Sadələşdirilmiş verginin bəyannaməsi»nin forması, «Sadələşdirilmiş verginin bəyannaməsi»nin tərtib edilməsi qaydası, «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nin forması və «Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi»nin tərtib edilməsi Qaydası», «Torpaq vergisinin bəyannaməsi»nə 1 N-li Əlavənin forması və onun tərtib edilməsi Qaydası» ləğv edilib.

Dəyişikliklər haqqında ətraflı məlumatı Vergilər Nazirliyinin rəsmi internet saytı www.taxes.gov.az-dan əldə etmək mümkündür.

# Vergi Məcəlləsində dəyişikliklər barədə qanun layihəsi müzakirə olunub

Oktyabrın 19-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasda «Azərbaycan Respublikasının 2003-cü il 17 iyun tarixli 478-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə»də, «Sığorta fəaliyyəti haqqında», «Qiymətli kağızlar bazarı haqqında», «Poçt haqqında», «Kommersiya sirri haqqında», «İnvestisiya fondları haqqında», «Banklar haqqında», «Bank olmayan kredit təşkilatları haqqında», «Reklam haqqında», «Daşınmaz əmlakın dövlət reyestri haqqında», «Avtomobil yolları haqqında» qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələri müzakirə olunub. Bildirilib ki, bu qanun layihələrində texniki dəyişikliklər edilir.

Deputatlar, həmçinin, Vergi və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələrinə də baxıblar. Qeyd edilib ki, bu qanun layihələrinə də təklif olunan dəyişikliklər texniki xarakter daşıyır. Layihəyə əsasən, vergi ödəyicisi kimi qeydiyyatda olmayan şəxslər tərəfindən vergi və maliyyə mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında xarici dövlətlərdən daxil olmuş məlumat mübadiləsi üzrə sorğuların cavablandırılması üçün tələb olunan məlumat və sənədlərin müəyyən edilən müddətdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə görə fiziki şəxslər əlli manat məbləğində, hüquqi şəxslər yüz manat məbləğində cərimə edilir.

Müzakirə edilən məsələlər barədə deputatların fikir və təklifləri səsləndirildikdən sonra qeyd olunan layihələr Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Vergi ödəyicilərinin təklifləri dinlənilib

*Ötən ilin sonunda dövlət başçısının fərmanı ilə təsdiq edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə 12 Strateji Yol Xəritəsi»ndə ayrı-ayrı dövlət orqanlarına, o cümlədən Vergilər Nazirliyinə də bir sıra tapşırıqlar verilmişdir. «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»nin, «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin və «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»nin əsas icraçısı Vergilər Nazirliyidir.*

Oktyabrın 19-20-də Vergilər Nazirliyində vergi ödəyiciləri ilə keçirilmiş görüşdə strateji yol xəritələrində nəzərdə tutulmuş tədbirlər müzakirə edilmişdir. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva görüş iştirakçılarının nəzərinə çatdırmışdır ki, strateji yol xəritələrindən irəli gələrək kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması məqsədilə silsilə görüşlər davam etdirilir. Bu görüşlərə şəffaf fəaliyyət göstərən və vergi orqanları ilə partnyorluq edən, vergidən yayınma niyyəti olmayan, gəlir və xərclərinin uçotunu aparmağa cəhd edən və sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri olan kiçik və orta sahibkarlıq subyektləri dəvət olunur: «Görüşlərin keçirilməsində məqsəd ölkədə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətini stimullaşdırmaq üçün vergi inzibatçılığı və vergi qanunvericiliyi ilə bağlı vergi ödəyicilərinin təkliflərini dinləməkdir. Belə görüşlər qrup şəklində davam edəcək və vergi ödəyicilərinin bütün təklifləri dinləniləcək. Strateji yol xəritələri ilə bağlı öz vəzifələrimizi icra edərkən, layihələr hazırlayarkən həmin təkliflər əsas götürülərək qanun və digər normativ hüquqi akt layihələri hazırlanacaq».

Sonra vergi ödəyicilərinin təklifləri dinlənilmişdir. Görüş iştirakçıları lizinq təşkilatları tərəfindən maliyyə lizinqi məqsədləri üçün ölkəyə idxal olunan məhsulların idxalda ƏDV-dən azad edilməsi, əvəzsiz alınmış əsas vəsaitlərin mənfəət vergisinə cəlb olunmasının Vergi Məcəlləsində aydın göstərilməsi, Məcəllənin 137-ci maddəsinin (Birgə fəaliyyətdən əldə edilən gəlir) təkmilləşdirilməsi, hüquqi və fiziki şəxslərin məlumat dəyişikliklərinin elektron formada həyata keçirilməsi kimi təkliflər irəli sürmüşlər.

Vergi ödəyicilərinin təkliflərinə münasibət bildirən S.Musayevə qeyd etmişdir ki, səmərəli vergi sisteminin təşviqi ilə bağlı Strateji Yol Xəritəsinin icrası ilə bağlı Vergilər Nazirliyi Tədbirlər Planı hazırlayıb və orada hüquqi və fiziki şəxslərin məlumat dəyişikliklərinin elektron formada həyata keçirilməsi öz əksini tapıb: «Vergilər Nazirliyinin müəyyənləşdirdiyi prioritetlərdən biri olan bu məsələnin aktuallığı nəzərə alınaraq, gələn ildən tətbiqi nəzərdə tutulur».

Görüşdə o da qeyd olunmuşdur ki, vergi ödəyiciləri Vergi Məcəlləsinə edilən dəyişikliklərin şərhinin kitab, yaxud elektron formada hazırlanmasını vacib hesab edirlər. Vergi ödəyiciləri hesab edirlər ki, belə vəsaitlərin nəşr olunması Vergi Məcəlləsi ilə bağlı əlavə sualların yaranmasının qarşısını alar. Ümumi fikir bu olmuşdur ki, Məcəlləyə edilən bəzi dəyişikliklərlə bağlı vergi ödəyiciləri üçün təlimlərin, məlumatlandırıcı tədbirlərin keçirilməsinə ehtiyac var.

S.Musayeva bildirmişdir ki, hər il Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərlə bağlı mətbuatda nazirliyin rəhbər vəzifəli şəxslərinin geniş şərhləri verilir: «İqtisadiyyat nə qədər dinamikdirsə, Vergi Məcəlləsi də o qədər dinamikdir. Strateji yol xəritələrindən irəli gələrək, ölkədə aparılan iqtisadi islahatların davamı kimi, vergi qanunvericiliyi təkmilləşmə mərhələsində olduğu üçün bütün dəyişikliklərin şərhini dərhal çatdırmaq mümkün olmur. Vergi Məcəlləsinin şərhinin kitab kimi nəşr edilməsi üçün müəyyən texniki işlərin görülməsi zəruridir. Buna baxmayaraq, həmin istiqamətdə ardıcıl işlər görülür. Məsələn, nazirliyin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə Bakı şəhərində və regionlarda vergi ödəyiciləri ilə müntəzəm görüşlər keçirilir. Bundan əlavə, vergi ödəyiciləri Məcəlləyə edilən əlavə və dəyişikliklərlə bağlı yaranan suallara Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin «sual-cavab» bölməsində cavab tapa bilərlər».

S.Musayeva əlavə etmişdir ki, strateji yol xəritələrindən irəli gələn vəzifələrdən biri də yeni qeydiyyatdan keçmiş vergi ödəyicilərinin qısa müddət ərzində təlimlərə cəlb olunmasıdır. Bu məsələ ilə bağlı konkret hədəf müəyyənləşdirilmiş və qaydalar hazırlanmışdır: «Bu yenilik gələn il yanvarın 1-dən tətbiq olunacaq. Yeni fəaliyyətə başlayan vergi ödəyiciləri birmənalı şəkildə təlimlərə cəlb olunacaqlar, illərlə fəaliyyət göstərən təcrübəli vergi ödəyiciləri də öz istəkləri ilə bu təlimlərdə iştirak edə biləcəklər».



**Yeni fəaliyyətə başlayan vergi ödəyiciləri təlimlərə cəlb olunacaqlar, illərlə fəaliyyət göstərən təcrübəli vergi ödəyiciləri də öz istəkləri ilə bu təlimlərdə iştirak edə biləcəklər**

Görüş zamanı vergi ödəyiciləri tərəfindən ƏDV bəyannaməsinin aylıq deyil, rüblük təqdim olunması; vergi hesab-fakturasının ləğv edilərək elektron qaimə-fakturaya inteqrasiya olunmaqla bir sənəddə birləşdirilməsi; şəxsi hesab vərəqəsində vergi borcunun tədiyyələr üzrə göstərilməsi və s. təkliflər də səsləndirilmişdir.

Görüş iştirakçılarının nəzərinə çatdırılmışdır ki, bütün təkliflər qeydə alınmışdır və müzakirə üçün rəhbərliyə təqdim olunacaqdır.

**Aytən NƏBİYEVA**

# Vergi orqanlarında işə qəbulla bağlı imtahan keçirilib

Oktyabrın 21-də Vergilər Nazirliyi Dövlət İmtahan Mərkəzi ilə birlikdə vergi orqanlarında işə qəbulla bağlı test imtahanı keçirib. İmtahan Vergilər Nazirliyi tərəfindən işə qəbul üzrə elan edilmiş müsabiqə çərçivəsində aparılıb.

Müsabiqəyə sənəd qəbulu 30 avqust-13 sentyabr tarixləri arasında elektron ərizə formasında təşkil olunub. Müsabiqədə iştirakla bağlı 1480 nəfər vətəndaş müraciət edib, onlardan vakant vəzifələrin tələblərinə uyğun olan 985 nəfər namizəd qismində müsabiqəyə buraxılıb.

Müsabiqə, test imtahanı və müsahibə olmaqla, iki mərhələdə keçirilir. Qanunvericiliyə uyğun olaraq, test imtahanında uğur qazanmış namizədlər müsabiqənin ikinci mərhələsinə - müsahibəyə buraxılırlar. Oktyabrın 21-də test imtahanlarından uğurla keçmiş 89 nəfər müsahibə mərhələsinə adlayıb. Müsahibələrdə namizədlərin ümumi dünyagörüşü, müvafiq sahədə bilikləri və onları tətbiq etmək bacarıqları yoxlanılacaq. Şəffaflığın təmin edilməsi üçün müsahibə kollegial şəkildə - Müsabiqə Komissiyası tərəfindən aparılır, audio-video çəkilişindən istifadə edilir.



Müsabiqədə uğur qazanan namizədlər dövlət vergi orqanlarının ehtiyat kadrlar siyahısına daxil ediləcək və onların vakant vəzifələrə təyinatı üzrə müvafiq tədbirlər görüləcək. Müsabiqənin nəticələri nazirliyin internet saytı vasitəsilə ictimaiyyətə elan ediləcək.

# Elektron qaimə-faktura vergidən yayınmanın qarşısını alır



Bu ilə qədər sahibkarlıq subyektləri arasında mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturaların kağız formasında tərtibi bir sıra hallarda vergidən yayınma hallarına şərait yaradırdı. Qaimələrin elektron formada tərtibi ilə bağlı bu sahədə ciddi dəyişikliklər baş verdi.
Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin Qarşılıqlı əlaqələrin təhlili şöbəsinin rəhbəri Emil Əzizli ilə müsahibənin mövzusu bu barədədir.

***- Emil müəllim, elektron qaimə-fakturanı kimlər təqdim edə bilər?***

- Əməliyyatların şəffaflaşdırılması, rəsmiləşmə prosedurunun sadələşdirilməsi, operativliyin təmin edilməsi, inzibatçılıq xərclərinin azaldılması və sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınması məqsədilə bir sıra ciddi tədbirlər görüldü, Vergi Məcəlləsinə dəyişikliklər edildi. «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 dekabr tarixli fərmanının icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 mart tarixli Qərarı ilə «Elektron qaimə-fakturanın formasının, tətbiqi, uçotu və istifadəsi Qaydaları» təsdiq olundu. Qərarın 5-ci bəndində ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 218.1.2-ci maddəsində göstərilən şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixindən malların (işlərin, xidmətlərin) alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməsi göstərilmişdir.

«Vergi Məcəlləsinin 71-1-ci maddəsinə əsasən, bu Məcəllə ilə müəyyən edilmiş hallarda fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verir. Vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan şəxslərin elektron qaimə-faktura vermək hüququ yoxdur.

Bildiyiniz kimi, artıq 6 aydan çoxdur ki, ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə qaimə-fakturalar elektron formada təqdim edilir. Bu sistemin tətbiqinə başlanılan dövrdən indiyədək 7389 vergi ödəyicisi tərəfindən 3.527.047 elektron qaimə-faktura təqdim olunmuşdur ki, burada əməliyyatların dəyəri 18.428.931 milyon manatdan artıqdır.

***- Elektron qaimə-faktura hansı yollarla hazırlana bilər?***

- Vergi ödəyicisi elektron qaimə-fakturaları iki üsulla hazırlaya bilər. Birincisi, «Onlayn» rejimdə. Vergi ödəyicisi gücləndirilmiş elektron imzadan istifadə etməklə İnternet Vergi İdarəsinin (www.e-taxes.gov.az) «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçib «Elektron qaimə» altbölməsinə daxil olur və onlayn rejimdə elektron qaimə-fakturasını tərtib edərək digər vergi ödəyicisinə təqdim edir (elektron qaimə-fakturaların onlayn rejimdə hazırlanması («Elektron qaimə» altsistemi vasitəsilə) - https://www.e-taxes.gov.az).

İkincisi, «Oflayn» rejimdə. Vergi ödəyicisi elektron qaimə-fakturasını tərtib etmək üçün xüsusi proqram təminatının («Elektron Faktura Tərtibatı Proqramı - eFP») sonuncu versiyasını və digər zəruri proqramları İnternet Vergi İdarəsinin «e-Qaimə-faktura» bölməsinin «Lazımlı proqramlar» altbölməsindən öz kompüterinə yükləyir, tələb olunan qaimə-fakturaları bu proqram vasitəsilə internetdən istifadə etmədən hazırlayır və paketləyir. Sonra paket faylını oflayn rejimdə «Asan DOC client» və ya «e-İmzalayıcı» proqramlarının biri vasitəsilə imzalayır («Asan DOC client» proqramını www.asanimza.az, «e-İmzalayıcı» proqramını isə www.e-imza.az saytlarından əldə etmək olar). İstifadəçi paket faylını «Asan DOC» portalı vasitəsilə də imzalaya bilər. Sonda gücləndirilmiş elektron imza vasitəsindən (Asan İmza və ya elektron İmza) istifadə etməklə İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçib «Elektron qaimə» altbölməsinə daxil olur və imzalanmış «adoc» və ya «edoc» tipli faylı «Paket göndər» düyməsi vasitəsilə sistemə yükləyir. Yükləmə zamanı sistem tərəfindən elektron qaimə-fakturalara unikal seriya və nömrələr verilir və qarşı tərəfin elektron qutusuna göndərilir. Bundan sonra bütün digər əməliyyatlar onlayn rejimdə aparılır. Bu rejim əsasən iri vergi ödəyiciləri üçün nəzərdə tutulmuşdur və çox sayda elektron qaimə-fakturaları təqdim edən vergi ödəyiciləri tərəfindən istifadə olunması tövsiyə edilir.

Qeyd edək ki, bu barədə İnternet Vergi İdarəsində yerləşdirilmiş «Elektron qaimə-fakturanın istifadəçi təlimatı»nda da ətraflı məlumat verilmişdir. Nazirlər Kabinetinin Qərarına əsasən, bütün digər vergi ödəyiciləri 2018-ci il yanvar ayından elektron qaimə-faktura tətbiqinə başlayacaqlar ki, buna da çox az müddət qalıb. Digər vergi ödəyicilərinin, xüsusilə sadələşdirilmiş vergi rejimi tətbiq edən ödəyicilərin sayının bütövlükdə vergi ödəyicilərinin sayında əhəmiyyətli xüsusi çəkiyə malik olduğunu nəzərə alsaq, bu sistemin tətbiq dairəsinin genişlənəcəyini təsəvvür etmək olar.

Elektron qaimənin bütün vergi ödəyiciləri üzrə tətbiqindən sonra, ƏDV-də olduğu kimi, digər vergi növləri üzrə də malların satışı dövriyyəsi tam şəkildə elektron qaydada nizamlanacaq və prosesə vergi orqanları tərəfindən nəzarət ediləcək.

***- E-qaimənin tətbiqinin vergi orqanları və vergi ödəyiciləri üçün hansı üstünlükləri var?***

- Hazırda maliyyə, bank sferasının elektron mühasibatlıq sistemləri yeni əsaslar üzərində qurulur, ödəniş sistemlərində dəyişikliklər baş verir, digər sahələrdə hesablaşmaların strukturu təkmilləşdirilir. E-qaimə inzibatçılıq xərclərinin aşağı salınmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Elektron qaimə-fakturanın tətbiqinin digər üstünlüyü isə mətbəə xərclərinin və vaxt itkisinin azaldılmasıdır. Bu sistemin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən və əlavə vaxt itkisinə yol vermədən birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür.

Elektron qaimə-faktura sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edir. Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması vahid elektron baza formalaşdırır və bu, sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə kömək edir.

**Elektron qaimə-faktura sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edir**

***- Elektron qaimə-fakturanın tətbiqindən yayınan sahibkarlar üçün hansı cəza tədbiri nəzərdə tutulub?***

- Vergi Məcəlləsinin 71-1-ci maddəsinə əsasən fərdi sahibkarlara və hüquqi şəxslərə malları təqdim edən, işləri görən və xidmətləri göstərən şəxs onlara elektron qaimə-faktura verməlidir. Elektron qaimə-fakturaya etinasız yanaşan sahibkarlar elə düşünməməlidirlər ki, bununla sanksiyalara məruz qalmayacaqlar. Qanunla müəyyən edilmiş öhdəliklərə riayət olunmamasına görə elektron qaimənin tətbiqindən yayınan sahibkarlar üçün cəza mexanizmi mövcuddur. Yəni səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcı təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə üzləşəcək.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# «ASAN imza» sertifikatı alanların sayı artıb

*Artıq Azərbaycan brendinə çevrilmiş «ASAN imza» dövlət və özəl sektorun elektron xidmətlərindən hər yerdə və təhlükəsiz şəkildə əlyetərlilik imkanı yaradır və qanunvericilik səviyyəsində ümummilli identitetə bərabər tutulur. Hazırda «ASAN imza» bütün vacib elektron tranzaksiyaları həyata keçirməyə və sənədləri hüquqi baxımdan qanuni olan elektron imza ilə imzalamağa şərait yaradır, tranzaksiyaların təhlükəsizliyi və toxunulmazlığına tam zəmanət verir. «ASAN imza» vasitəsilə elektron vergi bəyannamələrinin verilməsi, gömrük xidmətində məhsulların və nəqliyyat vasitələrinin bəyan edilməsi, əmək müqavilələri haqqında bildirişlərin qeydiyyatı, abituriyentlərin onlayn qeydiyyatı və s. həyata keçirilir.*

2013-cü ildən istifadəyə verilmiş «ASAN imza» həllin mobilliliyi və istifadə asanlığı sayəsində vətəndaşlar və biznes nümayəndələri arasında populyarlıq qazanaraq, mobil hökumətin əsas komponentlərindən sayılır. «ASAN imza»dan hazırda dövlət və özəl sektorun 500-dən çox elektron xidmətində istifadə olunur. Dövlətə və özəl sektora aid müxtəlif çağrı mərkəzlərinə inteqrasiya edilmiş «ASAN imza»dan banklar özlərinin daxili elektron kargüzarlıq sistemlərində istifadə edirlər. «ASAN imza» «Şəxsi kabinetlər»ə, hesab platformalarına, sığorta və digər onlayn sistemlərə giriş üçün universal və daha təhlükəsiz identifikator kimi əvəzolunmazdır. «ASAN imza» texnologiyasının aktiv şəkildə tətbiqi ölkədə elektron bankçılıq və elektron kommersiyanın inkişafına təsir göstərir.

«ASAN imza» texnologiyası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə aid «Azexport.az» portalına da inteqrasiya olunub və bu texnologiya ölkədə elan edilən «Made in Azerbaijan» konsepsiyasını izləməkdədir. Bu gün portal Azərbaycanda istehsal olunan malların ixracını dəstəkləyir və «Alibaba.com», «Wholesale» və «All.biz» kimi dünya elektron ticarət şirkətləri ilə çalışır. Bundan əlavə, Azərbaycanın qeyri-rezidentləri üçün fəaliyyətə başlayan «emResidency» proqramı sayəsində «ASAN imza»nı hər kəs əldə etmək imkanına malik olacaq. Bu imkan xaricdə fəaliyyət göstərərək Azərbaycanda biznes qurmağa, ölkəyə investisiya qoymağa və lokal onlayn xidmətlərin bütün imkanlarından istifadə etməyə çalışan hər kəsə aiddir.

Bu ilin 9 ayı ərzində «ASAN imza» üçün müraciət edənlərin sayı 63531, verilən sertifikatların sayı isə 110.651 olub. Ötən ilin müvafiq dövründə isə müraciət edənlərin sayı 28434, verilən sertifikatların sayı 49532 idi. 2017-ci ilin 9 ayı ərzində verilmiş sertifikatlardan 56.916-sı «Şəxsi», 51487-si «İş», 2248-i isə «Dövlət və bələdiyyə» tipli olub.

Qeyd edək ki, sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «ASAN imza»nın yeni tarifinin tətbiqinə başlanılıb. Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «ASAN imza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunub. Tarif « Dövlət və ya bələdiyyə» sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər (aylıq abunə haqqı, aparılmış hər əməliyyata görə ödəniş) olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.










**Aytən NƏBİYEVA**

# Gələn ilin dövlət büdcəsində daxilolmalar artacaq

Azərbaycan hökuməti 2018-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin göstəricilərinin əsas parametrlərini açıqlayıb. Əlaqədar nazirlik, komitə, idarə və təşkilatlarla birlikdə müvafiq dövlət proqramları əsasında hazırlanan «Azərbaycan Respublikasının 2018-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri» Milli Məclisdə müzakirə olunduqdan sonra qəbul ediləcək.

Növbəti il üçün büdcə zərfinin əsas rəqəmləri gəlirlər və xərclərin həcmidir. Hökumətin qərarına əsasən, dövlət büdcəsinin gəlirləri 20,127 mlrd. manat, xərcləri isə 20 mlrd. 905,7 mln. manat təşkil edəcək. Dövlət büdcəsinin kəsirinin 778,7 mln. manat olacağı proqnozlaşdırılır. Xatırladaq ki, 2017-ci il dövlət büdcəsinin gəlirləri 16.766 milyard manat, xərcləri isə 17.941 milyard manat məbləğində təsdiqlənmişdi. Beləliklə, 2018-ci ilin dövlət büdcəsində mərkəzləşdirilmiş gəlirlərin 19 mlrd. 476,329 mln. manat, yerli gəlirlərin 650,671 mln. manat, mərkəzləşdirilmiş xərclərin 20 mlrd. 181,608 mln. manat, yerli xərclərin 724,092 mln. manat məbləğində olacağı gözlənilir. Gəlirlərin mənbələrinə nəzərə salanda məlum olur ki, dövlət büdcəsinə fiziki şəxslərin gəlir vergisindən 1,196 mlrd. manat, hüquqi şəxslərin mənfəət (gəlir) vergisindən 2,320 mlrd. manat, əlavə dəyər vergisindən (ƏDV) 4,288 mlrd. manat, ölkə ərazisinə malların idxalına görə ƏDV-dən 1,705 mlrd. manat, sadələşdirilmiş vergidən 380 mln. manat, aksizlərdən 726 mln. manat, ölkə ərazisinə malların idxalına görə aksizlərdən 172 mln. manat, yol vergisindən 91 mln. manat, mədən vergisindən 136 mln. manat, gömrük rüsumlarından 535 mln. manat, aksiz markalarının satışından 6,3 mln. manat, dövlət rüsumundan 108 mln. manat, büdcə təşkilatlarının ödənişli xidmətlərindən 460 mln. manat cəlb etmək nəzərdə tutulub.

Xərclərin mənbələrinə nəzər saldıqda isə məlum olur ki, ümumi dövlət xidmətlərinə 3 mlrd. 620,257 mln. manat (o cümlədən qanunvericilik və icra hakimiyyəti orqanlarının saxlanılması xərclərinə 654,946 mln. manat, beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərclərinə 215,1 mln. manat, elm xərclərinə 128,060 mln. manat, dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclərinə 2 mlrd. 262,778 mln. manat, Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiyaya 281,9 mln. manat), müdafiə xərclərinə 2 mlrd. 738,722 mln. manat, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarına 1 mlrd. 329,535 mln. manat, təhsil sahəsinə 2 mlrd. 1,498 mln. manat, səhiyyə sahəsinə 740,661 mln. manat, sosial müdafiə və sosial təminata 2 mlrd. 197,182 mln. manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətə 304,289 mln. manat, mənzil və kommunal təsərrüfatı 457,399 mln. manat, kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsinə 656,260 mln. manat, sənaye, tikinti və faydalı qazıntılar sahəsinə 4 mlrd. 944,376 mln. manat, nəqliyyat və rabitə sahəsinə 166,791 mln. manat, iqtisadi fəaliyyətə 245,511 mln. manat, əsas bölmələrə aid edilməyən xidmətlərə 1 mlrd. 495,203 mln. manat yönəldiləcək.

Xatırladaq ki, bu il dövlət büdcəsində neftin qiyməti 45 dollar səviyyəsində hesablanacaq.

2018-ci il dövlət büdcəsinə Dövlət Neft Fondundan (ARDNF) daxilolmaların (transfertin yuxarı həddi) həcmi də açıqlanıb. Növbəti il ARDNF-dən büdcəyə 9,216 mlrd. manatın transferti nəzərdə tutulub. Bu, 2017-ci ildəki rəqəmdən 33,8% və ya 3.116 milyard manat çoxdur.

Gələn il Azərbaycanın dövlət borcları üzrə ödəniş 2 mlrd. 262,277 mln. manat təşkil edəcək. «2018-ci il dövlət büdcəsi haqqında» qanun layihəsinə əsasən, bu ödənişin 103 mln. 180, 383 manatı daxili borclara (o cümlədən 80 mln. 173,398 manatı faizlərə, 23 mln 006,985 manatı əsas borclara) görə həyata keçiriləcək. Xarici borclara görə ödəniş isə 2 mlrd 159,597 mln. manat (o cümlədən 533 mln. 591,421 manat faizlər, 1 mlrd. 626,005 mln. manat əsas borclar) həcmində nəzərdə tutulub. 2018-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 700 mln. manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 1 mlrd. manat, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 4 mlrd. manat həcmində müəyyən edilib.

Qeyd edək ki, Dünya Bankının yenilənmiş proqnozlarına görə, Azərbaycan cari ildə qeyri-neft sektoru üzrə sürətli inkişafını davam etdirəcək, neft hasilatı isə azalacaq. Bankın proqnozuna əsasən, 2018-ci ildə Azərbaycanın ÜDM-i 0,9%-lik artım nümayiş etdirəcək. Bunun əsas səbəbi kimi «Şahdəniz-2» layihəsinin işə düşməsi göstərilir. 2019-cu ildə isə Azərbaycanda 1,5%-lik iqtisadi artım proqnozlaşdırır. Dünya Bankının ehtimalına görə, bu il ölkədə inflyasiya 11,2, növbəti iki ildə isə müvafiq olaraq 5% və 4,9% təşkil edəcək: «Cari ilin birinci yarısında ixracın artması və idxalın azalması tədiyyə balansında ÜDM-in 4,4%-nə bərabər olan müsbət saldonun yaranmasına səbəb olub. Neft hasilatının kəskin azalmasına baxmayaraq, rəsmi statistikaya əsasən, neft ixracının həcmi 42%, qeyri-neft məhsullarının ixracı isə 11% artıb. Bu il manat dollara nisbətən 4,4% bahalaşıb».

**Rəşad SADIQOV**

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

## İnternet vasitəsilə alınan malların ƏDV-yə cəlb olunması

***Xarici internet saytlarından alınan mallara görə ödənilən vəsaitdən bank tərəfindən ƏDV hesablanırmı?***

Vergi Məcəlləsinin 169.1-ci maddəsinə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində həmin Məcəllənin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), Məcəllənin XI fəslinin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb olunur.

Vergi Məcəlləsinin 169.3-cü maddəsinə əsasən, Məcəllənin 169.1-ci maddəsi tətbiq edildikdə, vergi agenti qeyri-rezidentə ödənməli olan məbləğə ƏDV hesablamalı və ödəməlidir. Verginin məbləği Məcəllənin 173.1-ci maddəsinin müddəalarına uyğun olaraq vergi dərəcəsinin qeyri-rezidentə ödənilməli olan məbləğə (ƏDV nəzərə alınmadan) tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.

**Qeyd olunan müddəalara əsasən:**

Vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən xarici saytlardan elektron ticarət qaydasında malların alınmasına görə aparılan ödənişlərdən banklar tərəfindən alıcının hesabından ƏDV tutulmur.

## Yoxlamaların dayandırılması müddəti 2021-ci ilədək uzadılacaq

Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2015-ci il noyabrın 1-dən 2 il müddətinə dayandırılmışdı. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, qanunun icra müddəti uzadılmaqla yoxlamaların 2021-ci ilə qədər dayandırılması nəzərdə tutulur.

Z.Səmədzadənin sözlərinə görə, qanun layihəsinə bəzi dəyişikliklər də ediləcək. Hazırda parlamentin müvafiq komitələrində bununla bağlı müzakirələr aparılır. Layihəyə qida məhsullarının təhlükəsizliyi və dərman vasitələrinin keyfiyyət qaydalarına riayət olunması ilə bağlı yeni maddə əlavə ediləcək və həmin sahədə yoxlamalar aparılacaq: «Bu sahədə yoxlamaların aparılmasında məqsəd insanların həyat və sağlamlığının etibarlı qorunması, dərman bazarında təhlükəsizlik qaydalarına riayət edilməsi məqsədilə nəzarətin həyata keçirilməsidir».

İqtisadiyyat nazirinin müavini Sahil Babayev qeyd edib ki, sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasından ötən 23 ayda, vergi yoxlamaları istisna olunmaqla, 113 yoxlama həyata keçirilib. Yoxlamaların dayandırılmasından əvvəlki 23 ay ərzində isə bu say 113 mindən çox olub. Belə bir qətiyyətli addımın atılması nəticəsində sahibkarların əvvəllər üzləşdikləri problemlər öz həllini tapıb, biznes və investisiya mühiti daha da yaxşılaşıb, sahibkarlıq inkişaf edib. Buna görə də dövlət bu istiqamətdə öz siyasətini davam etdirmək niyyətindədir. Yoxlamaların dayandırılması müddətinin uzadılmasında əsas məqsəd ölkədə sahibkarlığın fəaliyyətinə maneələrin tam aradan qaldırılması, qeyri-neft sektorunun inkişafının əsas güc mərkəzi olan kiçik və orta sahibkarlığın stimullaşdırılması, əlverişli biznes mühitinin və şəffaflığın təmin edilməsidir.

Əsas məqsəd ölkədə sahibkarlığın fəaliyyətinə maneələrin tam aradan qaldırılması, qeyri-neft sektorunun inkişafının əsas güc mərkəzi olan kiçik və orta sahibkarlığın stimullaşdırılması, əlverişli biznes mühitinin və şəffaflığın təmin edilməsidir

Qeyd olunub ki, bundan sonra da sahibkarlara süni maneələr yaratmaq istəyən qurumlarla bağlı monitorinqlər aparılacaq, bu cür hallar müşahidə olunduğu təqdirdə, onlara qarşı ciddi tədbirlər görüləcək. Belə vəziyyətlə rastlaşan sahibkarlara İqtisadiyyat Nazirliyində fəaliyyət göstərən «Qaynar xətt»ə müraciət etmək tövsiyə olunub.

S.Babayev biznes mühiti ilə bağlı islahatların mühüm istiqamətlərindən biri kimi lisenziya və icazələr sahəsində xeyli dəyişikliklərin baş verdiyini vurğulayıb. Bildirib ki, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 29-a, icazələrin sayı isə təqribən 4 dəfə azaldılaraq 86-ya endirilib, indiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar və yeni verilən lisenziyalar müddətsiz lisenziya ilə əvəz edilib, lisenziyanın verilməsinə görə dövlət rüsumları təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə azaldılıb, lisenziyanın verilməsi üçün tələb olunan prosedurlar əhəmiyyətli dərəcədə sadələşdirilərək «ASAN xidmət» mərkəzləri vasitəsilə verilməsi təmin olunub. 2015-ci il noyabrın 2-dən indiyədək sahibkarlıq subyektlərinə 4 min 300-dən çox lisenziya verilib. Lisenziyalar daha çox əczaçılıq, özəl tibb, tikinti-quraşdırma işləri, tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq edilən bina və qurğuların layihələndirilməsi, baytarlıq preparatlarının satışı, bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması, dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması, yanğından mühafizə, qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri, təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması, təhsil və sair fəaliyyət sahələrinə verilib.

**ELBRUS**

# «Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı: inkişaf perspektivləri»

Oktyabrın 19-da Bakıda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə «Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı: inkişaf perspektivləri» mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə dövlət orqanlarının, özəl sektorun, Avropa İttifaqının, BMT-nin İnkişaf Proqramı və digər beynəlxalq qurumların, Rusiya, Estoniya, İngiltərə, Polşa, İsveçrə, Çin və digər ölkələrin nümayəndələri iştirak ediblər.

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı*** tədbiri açaraq bildirib ki, Rəqəmsal Ticarət Qovşağı (RTQ) - elektron tranzaksiyaların hüquqi qüvvə daşıyacağı və elektron ticarətin iştirakçılarının portalda qeydiyyatı prosedurunun hüquqi şəxslərin reyestri vasitəsilə dövlət tərəfindən təsdiqlənəcəyi elektron ticarətin innovativ platformasıdır. RTQ ölkəmizdə elektron ticarət və elektron kommersiya sahəsində dövlət-özəl sektor əməkdaşlığı üçün ən yaxşı modeldir.

V.Qasımlı bildirib ki, RTQ ilə bağlı xarici tərəfdaş və beynəlxalq təşkilatlarla sazişlərin imzalanması bu prosesi sürətləndirir. İqtisadi İslahatlarin Təhlili və Kommunikasiya Mərkəzi ilə ISESCO arasında anlaşma memorandumunun imzalanması İslam ölkərində elektron imzaların qarşılıqlı tanınması baxımından önəm daşıyır. Yaxın günlərdə Çin hökuməti ilə də bu cür sənədin imzalanması nəzərdə tutulur. Həmin sazişlər Azərbaycanın bu sahədə mövqeyinin gücləndirilməsinə, xarici ticarət əməliyyatlarının genişləndirilməsinə və tranzaksiyaların artmasına kömək edəcək.

***Azərbaycan Respublikası Prezidentinin İqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçi xidmətinin sektor müdiri Elxan Mikayılov*** bildirib ki, ölkəmizin yerləşdiyi coğrafi mövqe və iqtisadi imkanları regionun iqtisadi mərkəzinə çevrilməsi üçün əlverişli şərait yaradır. Onun sözlərinə görə, RTQ-nin yaradılması nəticəsində respublikamız transregional ticarət nöqtəsinə çevrilməkdədir. Qovşağın fəaliyyətinin genişləndirilməsi Azərbaycanın beynəlxalq ticarətə inteqrasiyası istiqamətində atılan zəruri addımlardan biridir. RTQ əsasında «Azexport» portalının (azexport.az) yaradılması qeyri-neft sektorunun inkişafı, o cümlədən qeyri-neft məhsullarının ixracı baxımından olduqca böyük əhəmiyyət daşıyır. Portala qonşu ölkələr tərəfindən böyük maraq göstərilir və «Azexport» beynəlxalq əhəmiyyətli resursa çevrilir.

***İqtisadiyyat nazirinin müavini Sahil Babayev*** qeyd edib ki, Azərbaycanın qarşısında duran müasir iqtisadi çağırışlardan biri ixracyönümlü iqtisadiyyata keçidin təmin olunması, Avropa və MDB ölkələri, Türkiyə, Gürcüstan və İran kimi yaxın region ölkələri ilə əlverişli ticarət sazişlərinə əsaslanan aşağıtarifli mühitdə səmərəli gömrük prosedurlarının tətbiqi nəticəsində Azərbaycanın ticarət qovşağı kimi mövqeyinin gücləndirilməsidir. Bu məqsədlə ölkəmizin şaxələndirilmiş nəqliyyat-logistika imkanlarından və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etməklə ixrac potensialının yüksəldilməsi, transsərhəd ticarətin, o cümlədən elektron ticarətin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulub. Həmin hədəflərin gerçəkləşməsində isə ən mükəmməl platforma kimi RTQ mühüm əhəmiyyət kəsb edir. Qovşaq, həmçinin, Azərbaycanın aparıcı mövqeyinin gücləndirilməsi baxımından da müstəsna rol oynayır.

E-imzaların diplomatik nümayəndəliklər tərəfindən ölkədən kənarda verilməsi texniki cəhətdən təmin olunacaq, bununla da qeyri-rezident öz ölkəsində həmin sistem vasitəsilə elektron qeydiyyatdan keçərək Azərbaycanda müəssisə yarada biləcək

S.Babayev vurğulayıb ki, RTQ-də layiqli və etibarlı tərəfdaş olmaq üçün beynəlxalq ticarətdə rəqabətədavamlı milli məhsul istehsalı vacib şərtlərdəndir. Bu məqsədlə hökumət tərəfindən biznesin fəaliyyətinin stimullaşdırılması üçün qanunvericilik təkmilləşdirilib, infrastruktur təminatı yaxşılaşdırılıb, sahibkarlara dövlət dəstəyi artırılıb, ixracın diversifikasiyası məqsədilə mühüm addımlar atılıb. Ötən ildən başlayaraq tətbiq olunan ixracın təşviqi mexanizmi yerli istehsalın artırılması və ixracın coğrafiyasının genişlənməsi ilə yanaşı, xarici sərmayələrin cəlb olunmasına təkan verməkdədir. Bu siyasətin davam etdirilməsi sayəsində yaxın illərdə Azərbaycana 5-6 milyard dollar xarici sərmayənin qoyulacağı proqnozlaşdırılır.

Azərbaycan məhsullarının ixrac bazarlarında tanıdılması və satışının dəstəklənməsi məqsədilə həyata keçirilən «Made in Azerbaijan» layihəsi də mühüm rol oynayır. İxracın təşviqi ilə əlaqədar Belarusda Azərbaycan Ticarət evi fəaliyyətə başlayıb, Rusiya, Ukrayna və digər ölkələrdə də ticarət evlərinin yaradılması üçün işlər aparılır. Rusiya Federasiyası, Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə Azərbaycanın ticarət nümayəndələri təyin edilib.

***Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas*** qeyd edib ki, Avropada rəqəmsal ticarətin müxtəlif modulları tətbiq olunur. İxracla məşğul olan şirkətlər və sahibkarlar müasir texnologiyaların köməyi ilə bazar tapa bilirlər. Bu gün beynəlxalq ticarət sektorunda kiçik və orta sahibkarlıq (KOS) subyektləri fəal iştirakçı kimi çıxış edir. Azərbaycanda KOS-un böyük inkişaf potensialı var. KOS müəssisələrinin istehsal etdiyi məhsulların rəqabət qabiliyyətinin artırılması və xarici bazarlara daha çox çıxarılması, eləcə də beynəlxalq elektron kommersiya platformalarına birbaşa çıxışın əldə edilməsi sahəsində görülən işlər yaxın zamanda öz bəhrəsini verəcək. Bu baxımdan, RTQ Azərbaycanda kiçik və orta sahibkarların qlobal dəyər



zəncirlərinə inteqrasiyasına, Avropa İttifaqının idxalçıları ilə əlaqələrin qurulmasına, istehsalçı və ixracatçı assosiasiyaların potensialının gücləndirilməsinə öz töhfəsini verəcək.

***«ASAN imza» mobil elektron imzanın operatoru və RTQ-nin partnyoru olan «B.EST Solutions» Azərbaycan şirkətinin rəhbəri Yana Krimpe*** bildirib ki, birgə əməkdaşlıq çərçivəsində Rəqəmsal Ticarət Qovşağının, elektron pul kisəsinin yaradılması, ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələrin vahid elektron ərizə əsasında elektron qaydada verilməsi, elektron müraciət əsasında ixrac təşviqinin ödənilməsi və digər məsələlərin həlli üzrə tədbirlər davam etdirilir.

***Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov*** qeyd edib ki, sahibkarların ixraca olan marağının və ixrac edilən qeyri-neft məhsulları çeşidlərinin artması, ixrac coğrafiyasının genişlənməsi, Azərbaycan mənşəli məhsulların xarici bazarlarda analoji məhsullarla rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə AZPROMO-nun nəzdində «İxracatçılar Klubu» yaradılıb, «Export.az» rəsmi ixrac portalı istifadəyə verilib. Şərab, nar, fındıq, meyvə-tərəvəz, arıçıların ixracatçılar və istehsalçılar assosiasiyaları təsis olunub, sahibkarlara ixracla bağlı təlimlər keçilib, malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi sadələşdirilərək müddəti 3 gündən 1 günə endirilib.

***Dövlət Gömrük Komitəsinin idarə rəisi İqbal Babayev*** bildirib ki, Azərbaycanın beynəlxalq ticarət əlaqələrinin genişlənməsi gömrük orqanı qarşısında da yeni tələblər qoyub. Gömrük prosedurları və idxal-ixrac əməliyyatları asanlaşdırılıb, RTQ-nin köməyi ilə sahibkarlar üçün elektron gömrük bəyannamələrinin doldurulmasının real vaxt rejimində həyata keçirilməsi təmin edilib.

***Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumunun üzvü «Cybernet» şirkətinin rəhbəri İlham Namazov*** RTQ-nin əsas komponentlərindən olan innovasiyaların ixracı prosedurları barədə məlumat verərək bildirib ki, ötən müddət ərzində Azərbaycanın informasiya texnologiyaları sahəsində olan məhsulların xarici bazarlara çıxışına nail olmaq və beynəlxalq ixrac imkanlarını gücləndirmək, innovasiyalar sahəsində fəaliyyəti əlaqələndirmək üçün elektron imza, o cümlədən «ASAN imza» sertifikatlarının qarşılıqlı tanınması istiqamətində mühüm işlər görülüb. Elektron imza, o cümlədən «ASAN imza» vasitəsilə transsərhəd müqavilələrinin imzalanması mümkündür. Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlər, o cümlədən müqavilələrin elektron formada tərtibi və imzalanması, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlər həyata keçirilir. Bu əməliyyatlar «Azexport» portalına inteqrasiya olunub. Portalın köməyi ilə e-ixrac sənədini əldə etmək, məhsulların ixracı üçün lazım olan sənədlərin (sertifikat, lisenziya və s.) hazırlanması və yük gömrük bəyannaməsinin doldurulması təmin edilib. Qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi və qarşılıqlı tanınması üçün intensiv işlər aparılır. E-imzaların diplomatik nümayəndəliklər tərəfindən ölkədən kənarda verilməsi texniki cəhətdən təmin olunacaq, bununla da qeyri-rezident öz ölkəsində həmin sistem vasitəsilə elektron qeydiyyatdan keçərək Azərbaycanda müəssisə yarada biləcək. E-sertifikatın alınması təchizatçıdan sıfır faiz (0%) dərəcəsi ilə ƏDV tutulmasına, podratçı və subpodratçı şirkətlər tərəfindən sertifikatın alınması prosesinin elektronlaşdırılması vergi ödəyicilərinin vaxt və inzibati xərclərinin əhəmiyyətli şəkildə azalmasına gətib çıxaracaq. Beləliklə, bu amillər onların xərclərinin optimallaşdırılmasına və biznesin təşviqinə səbəb olacaq, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibinə və imzalanmasına, digər dövlətlərlə elektron məlumat mübadiləsinə, transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə, xarici investorlar üzrə vergi və inzibati xərclərinin azalmasına imkan verəcək.

***Rəqəmsal Ticarət Qovşağının meneceri Nicat Əsədli*** bildirib ki, RTQ-nin əsas komponentləri olan elektron pul kisəsinin yaradılması, qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi, ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan icazələrin vahid elektron ərizə əsasında elektron qaydada verilməsi, elektron müraciət əsasında ixrac təşviqinin ödənilməsi və digər hüquqi-texniki işlər artıq başa çatmaq üzrədir. Azərbaycanda elektron ticarətin təşkilini tənzimləyən qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması və «ASAN imza» sertifikatının beynəlxalq miqyasda qarşılıqlı tanınması üçün yetkin şərait mövcuddur. Azərbaycanın BMT-nin «Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiya»sına qoşulması ilə bağlı tədbirlər də davam etdirilir.

***«Azexport» portalının rəhbəri Zaur Qardaşov*** qeyd edib ki, RTQ sahibkarlar üçün bütün xidmətlərin «bir pəncərə» prinsipi üzrə təqdim edilməsinə imkan verir. «Azexport» portalının nəzdində olan «bir pəncərə» Azərbaycan sahibkarları ilə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan yaradır. Beləliklə, daha az resurs sərf etməklə ixrac prosedurlarını yüksək sürətlə həyata keçirən sahibkarlar «bir pəncərə» əsasında e-ixracın imkanlarından yararlanacaqlar. Bildirilib ki, portal hazırda Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyir və «Alibaba.com», «eBay.com», «Wholesale», «Amazon», «All.biz» kimi dünya elektron ticarət şirkətləri ilə əməkdaşlıq edir.

*Tədbirdə çıxış edən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndəsi Elnar Əsədov, «Paşa Bank» İdarə Heyətinin üzvü Aydın Atakişiyev, Estoniya hökumətinin rəqəmsal xidmətlər üzrə tanınmış mütəxəssisi Janek Rozov, Avropa E-identifikasiya və Təhlükəsizlik Assosiasiyasının sədri Con Şamah, Rusiyanın «Qazinformservis» MMC-nin müşaviri Sergey Kiryuşkin, Polşanın «Asseco Data Systems» şirkətinin layihə rəhbəri Alla Stoliava, İsveçrənin «OrientSviss» şirkətinin direktoru Sardor Muhammadaliyev ixrac prosedurlarının sadələşdirilməsi üçün yeni imkanlar, qeyri-rezidentlərə elektron imzaların verilməsi, şirkətlərin məsafədən qeydiyyatı və idarə olunması, elektron bankçılıq üçün yeni imkanlar, rəqəmsal ticarət qovşaqlarının inkişafı ilə bağlı Avropada tətbiq edilən müxtəlif konsepsiyaların ticarətə təsirləri, bu sahədə dövlət və özəl sektor arasında əməkdaşlığın əhəmiyyəti, elektron imzaların tətbiqi və qarşılıqlı tanınması ilə bağlı öz mülahizələrini söyləyiblər.*

Konfrans çərçivəsində İqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzi, Rusiyanın «Gazinformservis», «UTS GIS» və Polşanın «Asseco Data System» şirkətləri arasında elektron hüquqi əhəmiyyət kəsb edən sənədlərin transsərhəd mübadiləsi və elektron imzaların qarşılıqlı tanınması istiqamətində əməkdaşlıq haqqında memorandumlar imzalanıb.

**E. CƏFƏRLİ**

# Sahibkarlıq subyektlərinin qeydiyyatı asanlaşır



**Almaz Quliyeva,**
Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Dövlət qeydiyyatı və uçotun təşkili şöbəsinin rəhbəri, baş vergi xidməti müşaviri

Müxtəlif qeydiyyat və icazə prosedurlarına əməl olunması zamanı biznes subyektlərinin yerinə yetirdikləri əməliyyatların daha da sadələşdirilməsi, sərf edilən xərclərin və həmin müraciətlərə baxılma müddətinin azaldılması istiqamətində iş aparılması Azərbaycan dövlətinin müasir iqtisadi siyasətinin ən mühüm elementlərindəndir.

Son illərdə Azərbaycanda müasir texnologiyaların və mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə vergi inzibatçılığının bütün səviyyələrində əhəmiyyətli irəliləyişə nail olunmuşdur. Bu nailiyyətlər vergi inzibatçılığının təkmilləşməsi, rabitə və informasiya texnologiyalarının inkişafı üzrə müxtəlif dövlət proqramlarının icra edilməsi sahəsində görülmüş işlərlə həmahəng səslənərək işgüzar mühitdə və beynəlxalq aləmdə Azərbaycanın müsbət imicinin tanınmasına xidmət etmişdir.

«Doing Business 2017» hesabatının «Biznesə başlama» indikatorunda Azərbaycan üçün müəyyən olunmuş «Etalon qanunvericiliyə yaxınlıq» (DTF) indeksi 97,75% təşkil etmişdir ki, bu da ölkəmizdə aparılan işlərin dünya standartlarına uyğun olduğunu göstərir. Bu gün Azərbaycan «Biznesə başlama» indikatoru üzrə dünyada 5-ci, postsovet ölkələri arasında isə 1-ci yerdədir.

Həyata keçirilmiş islahatlar sahibkarlıq subyektlərinin qeydiyyatının ən qısa müddətdə aparılmasına şərait yaradır. Ölkəmizdə kommersiya qurumlarının, o cümlədən xarici kommersiya hüquqi şəxslərinin nümayəndəlik və filialının dövlət qeydiyyatı 2 gün, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin sürətli elektron dövlət qeydiyyatı dərhal, adi elektron dövlət qeydiyyatı isə 1 gün ərzində aparılır. Vergi Məcəlləsinə edilmiş dəyişiklik nəticəsində 2017-ci ildən fərdi sahibkarların da vergi uçotuna alınması cəmi 1 gün ərzində həyata keçirilir. Hazırda vergi inzibatçılığının bütün sahələrində olduğu kimi, qeydiyyat sahəsində də geniş islahatlar həyata keçirilməkdə və müsbət nəticələr əldə edilməkdədir.

Azərbaycanda sahibkarlıq subyektlərinin qeydiyyatının 2008-ci ildən Vergilər Nazirliyində «bir pəncərə» prinsipi ilə aparılması, 2011-2012-ci illərdə həyata keçirilmiş e-qeydiyyat islahatlarının məntiqi davamı olaraq cari ildə də qeydiyyat prosedurlarının təkmilləşdirilməsi məqsədilə təkliflər hazırlanaraq hökumətə təqdim edilmişdir.

«Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» dövlət başçısının 2017-ci il 22 fevral tarixli fərmanının icrası məqsədilə Vergilər Nazirliyi tərəfindən hazırlanmış «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» qanun layihəsi bu ilin aprel ayında baxılmaq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycanda yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı 2012-ci ildən tətbiq olunmaqdadır. 2016-cı ilin yekunlarına görə ölkədə dövlət qeydiyyatına alınmış kommersiya hüquqi şəxslərinin 55,1%-i elektron imza ilə təsdiq edilmiş ərizələrə əsasən elektron üsulla qeydə alınmışdır. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» qanun layihəsi hazırlanarkən ölkədə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı sahəsində toplanmış təcrübə əsas götürülmüşdür. Bu layihədə xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatının əcnəbi və vətəndaşlığı olmayan şəxsə məxsus olan elektron imza ilə təsdiq edilən və müvafiq icra hakimiyyəti orqanına elektron qaydada təqdim olunan ərizə və ona əlavə edilən sənədlər əsasında Vergilər Nazirliyinin mövcud elektron informasiya ehtiyatı imkanlarından istifadə olunmaqla aparılması nəzərdə tutulub. Bundan əlavə, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatında olduğu kimi, layihədə xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatının da rüsum ödənişi olmadan aparılması təklif edilib. Layihədə əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təsis etdikləri xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətə münasibətdə qeydiyyat ərizəsi ilə birlikdə təqdim olunan sənədlərin sayının azaldılması, həmin sənədlərin leqallaşdırılmasına və notarial təsdiqinə dair tələblərin tam aradan qaldırılması və xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatının 2 gün müddətində aparılması nəzərdə tutulur. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanunu qəbul edilmiş və 17.10.2017-ci il tarixdən qüvvəyə minmişdir. Bu dəyişikliklərin ölkəmizə xarici investisiyaların cəlb olunması prosesinə müsbət təsir edəcəyi gözlənilir.

Sahibkarlıq subyektlərinin rahatlığı üçün bir sıra prosedurların həyata keçirilməsinə metodiki dəstək olaraq istifadəçi təlimatları hazırlanmış və sahibkarların istifadəsinə verilmişdir. Bu məqsədlə hüquqi və fiziki şəxslərin qeydiyyatının və uçotunun ləğv edilməsi, habelə kommersiya hüquqi şəxslərdə məlumat dəyişikliklərinin aparılması ilə əlaqədar yerinə yetirilməli prosedurlarla bağlı təlimatlar hazırlanmış və Vergilər Nazirliyinin rəsmi internet saytında və İnternet Vergi İdarəsi portalında yerləşdirilmişdir.

Sahibkarlıq subyektlərinin qeydiyyatında həyata keçirilən islahatlar nəticəsində hazırda qeydiyyatın dinamikasında müsbət dəyişikliklər müşahidə olunur. 2017-ci ilin 9 ayı ərzində vergi orqanları tərəfindən 8352 kommersiya hüquqi, 117.717 fiziki şəxs qeydiyyata alınmışdır ki, bu da keçən ilin analoji dövrü ilə müqayisədə müvafiq olaraq 47,4% və 41,7% artım deməkdir. Bu ilin əvvəlindən 5785 yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin qeydiyyatı elektron qaydada aparılmışdır. Başqa sözlə, hüquqi şəxslərin elektron qeydiyyatının xüsusi çəkisi il ərzində 55,1%-dən 69,3%-ə yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş strateji yol xəritələri çərçivəsində Vergilər Nazirliyi üzrə nəzərdə tutulmuş layihələrdən biri də yerli investisiyalı kommersiya hüquqi şəxslərin məlumat dəyişikliyinin elektron qaydada həyata keçirilməsi ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi və məlumat dəyişikliyi prosedurunun sadələşdirilməsi üzrə layihənin işlənib hazırlanmasıdır. Hazırda layihə üzrə zəruri işlər görülür və ilin sonunadək yerli investisiyalı kommersiya hüquqi şəxslərin məlumat dəyişikliyinin elektron qaydada həyata keçirilməsi ilə bağlı qanunvericilikdə dəyişikliklərin edilməsi barədə təklif də hökumətə təqdim olunacaqdır.

## BİR CÜMLƏ - BİR XƏBƏR

İqtisadiyyat Nazirliyi Səudiyyə Ərəbistanının Ər-Riyad və Ciddə şəhərlərinə təşkil olunacaq ixrac missiyasında iştirak üçün ixracatçıların müraciətlərinin qəbulunu elan edib.

1995-ci ildən indiyədək Azərbaycan iqtisadiyyatına 233,5 milyard ABŞ dolları həcmində investisiya qoyulub ki, bunun da 111 milyard dollarını xarici investisiyalar təşkil edir.

Azərbaycan Standartlaşdırma İnstitutu və Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurasının Standartlaşdırma Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb.

«Azərbaycan İnvestisiya Şirkəti» ASC və Ukraynanın «İndar» şirkəti arasında Pirallahı Sənaye Parkında 3 hektar ərazidə infuziya və inyeksiya məhlullarının beynəlxalq standartlara (GMP) uyğun istehsalı üzrə müəssisənin yaradılmasına dair razılıq əldə olunub.

# Dövlət büdcəsinin və Dövlət Neft Fondunun gəlir və xərcləri açıqlanıb

Maliyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, 2017-ci ilin 9 ayında dövlət büdcəsinin mədaxili 12 mlrd. 19 mln. manat proqnoza qarşı 12.045,1 mln. manat və ya 0,2 faiz çox icra olunub ki, bu da 2016-cı ilin eyni dövrü ilə müqayisədə 1 mlrd. 942 mln. manat və ya 19,2 faiz çoxdur. Vergilər Nazirliyi tərəfindən mədaxil proqnozu 100,1 faiz icra edilməklə dövlət büdcəsinə 5 mlrd. 224,8 mln. manat vəsait təmin edilib. Həmin vəsaitin 73,2 faizi və ya 3 mlrd. 825,8 mln. manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür.

2017-ci ilin doqquz ayında Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi proqnoza 117,8 faiz əməl edərək dövlət büdcəsinə 1 mlrd. 950,4 mln. manat vəsait təmin edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 296,6 mln. manat və ya 17,9 faiz çoxdur. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə 4 mlrd.300 mln. manat vəsait daxil olub ki, bu da proqnoza nisbətən 275 mln. manat və ya 6 faiz azdır. Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaları 246,7 mln. manat təşkil edib, bu da 2016-cı ilin eyni dövrü ilə müqayisədə 53,8 mln. manat və 27,9 faiz çoxdur. Digər daxilolmalar üzrə büdcəyə 323,2 mln. manat, bundan 250 mln. manat vəsait Mərkəzi Bankın sərbəst mənfəətindən transfert şəklində daxil olub. 2017-ci ilin doqquz ayında dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 100,7 faiz və ya 12783,7 mln. manat icra olunub, bu isə 2016-cı ilin eyni dövrü ilə müqayisədə 2161,5 mln. manat və ya 20,3 faiz çoxdur.

İqtisadi təsnifata uyğun olaraq, cari ilin doqquz ayında dövlət büdcəsi xərclərinin 38,1 faizi və ya 4 mlrd. 865,1 mln. manatı sosialyönlü xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 351,4 mln. manat və ya 7,8 faiz çoxdur.

Cari ilin doqquz ayında dövlət əsaslı vəsait qoyuluşu xərclərindən elm, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 514,7 mln. manat, enerji, su təchizatı, nəqliyyat, kommunal, meliorasiya infrastrukturlarının tikintisinə, yenidən qurulmasına və digər sahələrə 1 mlrd. 666,1 mln. manat, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsinə dövlət büdcəsinin dövlət əsaslı qoyuluşu xərclərindən 64,9 mln. manat vəsait yönəldilib. Bu dövr ərzində dövlət büdcəsində 738,6 mln. manat kəsir (defisit) yaranıb. Kəsirin maliyyələşdirilməsi özəlləşdirmədən, daxili və xarici borclanmadan daxilolmalar və 2017-ci ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı hesabına təmin edilib. İcmal büdcəsinə gəlincə, qeyd etmək lazımdır ki, cari ilin doqquz ayında 614,5 mln. manat artım baş verib, icmal büdcənin gəlirləri 17 mlrd. 586,9 mln. manat, xərcləri isə 16 mlrd. 972,4 mln. manat təşkil edib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) da 9 aylıq gəlir və xərcləri açıqlanıb. 2017-ci ilin yanvar-sentyabr ayları ərzində ARDNF-nin büdcə gəlirləri 8 mlrd. 793,4 mln. manat, büdcə xərcləri isə 6 mlrd. 911,7 mln. manat təşkil edib. Fondun İctimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, 9 ay ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 7 mlrd. 976,7 mln. manat, o cümlədən mənfəət neftinin və qazın satışından 7 mlrd. 957,8 mln. manat, bonus ödənişləri 2,4 mln. manat, akrhesabı ödənişləri 3,6 mln. manat, tranzit gəlirləri 12,9 mln. manat olub. Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 816,7 mln. manat təşkil edib. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri 582,4 mln. manat olub.

Yanvar-sentyabr aylarında ARDNF-nin 2017-ci il büdcəsinin icrası çərçivəsində 4,3 mlrd. manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 82,5 mln. manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 39,5 mln. manat, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 17,2 mln. manat vəsait ayrılıb. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə 11,2 mln. manat vəsait yönəldilib. Makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə Mərkəzi Banka 2 mlrd. 448,3 mln. manat transfert edilib. Dövr ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 13 mln. manat təşkil edib.

2017-ci il oktyabrın 1-nə ARDNF-nin aktivləri 2017-ci ilin əvvəlinə (33,147 mlrd. dollar) nisbətən 8,67% artaraq 36,020 mlrd. dollara çatıb. Aktivlərin artımı ARDNF-nin büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirləri və investisiya portfelinin tərkib valyutalarının məzənnə dəyişikliyi fərqi hesabına olub.

**RƏŞAD**

# Rəqəmsal ödənişlərlə bağlı proqram hazırlanıb

Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu tərəfindən rəqəmsal ödənişlərin stimullaşdırılmasına dair hazırlanmış layihə Mərkəzi Banka təqdim olunub. Layihədə ölkədə rəqəmsal ödənişlərin genişləndirilməsi və nağdsız hesablaşmalara keçidin sürətləndirilməsi, bu sahədə qabaqcıl təcrübələrin tətbiqi, iqtisadi qurumların birgə koordinasiyasının artırılması və digər istiqamətlər öz əksini tapıb. «MasterCard»ın mütəxəssislərinin iştirakı ilə işlənmiş sənəddə ictimaiyyətin rəqəmsal əməliyyatlar barədə məlumatlılıq səviyyəsinin artırılması, ali təhsil müəssisələrində nağdsız ödənişlərin təşviqinə dair layihələrin həyata keçirilməsi də təklif olunur.



Nağdsız aparılan kart əməliyyatlarının xüsusi çəkisinin 2020-ci ilədək 30%-ə, 2025-ci ilədək 50%-ə, 2025-ci ildən sonra isə 80%-ə çatdırılması nəzərdə tutulub

Mərkəzi Bankdan verilən xəbərə görə, rəqəmsal ödənişlərin inkişaf etdirilməsi ilə bağlı dövlət qurumlarının, mobil operatorların və ödəniş sistemlərinin fəaliyyətində iştirak edən digər subyektlərin təklifləri də öyrənilməkdədir. Hazırda Maliyyə Bazarlarına Nəzarət Palatası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Mərkəzi Bank, Vergilər Nazirliyi, ölkədə fəaliyyət göstərən mobil operatorlar və bu sahəyə aid digər iştirakçılardan ibarət işçi qrup həmin istiqamətdə araşdırma və təkliflər hazırlayıb. İşçi qrupun rəqəmsal ödəniş sistemlərinin tətbiqi perspektivlərinə dair fəaliyyətinin yekunu olaraq, «2018-2021-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı» hazırlanıb və yaxın günlərdə təsdiq ediləcək. Sənəd «Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə müəyyən edilmiş prioritetlərə əsaslanır. Proqram çərçivəsində rəqəmsal iqtisadiyyata keçidlə bağlı infrastrukturun gücləndirilməsi, effektiv tənzimləmə metodlarının tətbiqi, ödəniş sistemlərinin texniki inkişafı, mobil operatorlara rəqəmsal ödəniş fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi, milli ödəniş sistemi və bank hesabları arasında inteqrasiyanın artırılması, avtomatlaşdırılmış kommunal xərc ödənişlərinin genişləndirilməsi nəzərdə tutulur. Sahibkarlıq subyektləri tərəfindən aparılan maliyyə əməliyyatlarının tamamilə nağdsızlaşdırılması, rəqəmsal ödənişlərin geniş tətbiqi məqsədilə komisyon haqları üzrə stimulların verilməsi kimi hədəflərə nail olmaq üçün internet və mobil bank sistemlərində elektron imzanın əhatə dairəsinin 2020-ci ildə 80-100% səviyyəsinə çatdırılması, POS-terminallar vasitəsilə həyata keçirilən əməliyyatların məbləğinin 400 milyon manatdan 2,7 milyard manatadək artırılması, nağdsız aparılan kart əməliyyatlarının xüsusi çəkisinin 2020-ci ilədək 30%-ə, 2025-ci ilədək 50%-ə, 2025-ci ildən sonra isə 80%-ə çatdırılması nəzərdə tutulub.

Rəqəmsal ödənişlərin inkişafına öz dəstəyini verən və Azərbaycan hökuməti ilə bu strategiyanın həyata keçirilməsində yaxın tərəfdaşlıq edən «MasterCard» beynəlxalq ödəniş şirkəti birgə əməkdaşlıq çərçivəsində «Nağdsız Azərbaycan» layihəsinə start verib. Şirkətin nümayəndəsi Alper Meric bildirib ki, üç mərhələdən ibarət layihə çərçivəsində nağdsız ödənişlər bazarının mövcud vəziyyəti və nağd iqtisadiyyatın həcmi qiymətləndiriləcək, sonrakı mərhələdə isə vəziyyətə uyğun strategiya müəyyənləşdiriləcək və Azərbaycanın bütün regionlarını əhatə edən rəqəmsal ödənişlərə dair fəaliyyət mexanizmləri hazırlanacaq. Şirkət artıq layihənin birinci mərhələsinə başlayıb və ilin sonuna kimi işlər tamamlanacaq.

**ELBRUS**

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Menecment-idarəetmə xüsusi məktəb tələb edir

**Müasir dünyada konkret bazar şərtləri, bazar iqtisadiyyatı şəraitində müəssisələrin və istehsalın özünəməxsus idarəetmə metodları var. Bu metodlar bütövlükdə biznesin təşkilinin ən optimal variantının əldə olunması məqsədilə müəssisənin idarə edilməsi və ya menecment anlayışını yaradır. «ARK Business Solutions» şirkətinin rəhbəri, hüquqşünas Xəyal Məmmədxanlı müasir biznesdə idarəetmənin rolunu şərh edir.**

Əvvəllər idarəetmə deyəndə yalnız şirkətin idarə edilməsi başa düşülürdü. Lakin son dövrlərdə istənilən sektorda menecment sözünün əhatə dairəsi genişlənib. Məsələn, əvvəllər kadrlar şöbəsi adlanan struktur vahidi indi insan resurslarının idarə edilməsi adlanır. Burada məsələ yalnız nəyəsə rəhbərlik etməklə məhdudlaşmır, bütün proseslər - yazmaq, idarə etmək, tənzimləmək, nəzarət aparmaq, səhvləri görmək və onlardan nəticə çıxarmaq, təkmilləşdirmək və s. nəzərdə tutulur. Risklərin idarə edilməsi, zamanın idarə olunması, pulun idarə edilməsi kimi terminlər də artıq biznes proseslərini müşayiət edir.

*İdarəetmənin səviyyələri və vasitələr...*

Sonunda idarəetmə sözü olan istənilən sahəni götürdükdə bunlar həyata keçirilir:

- vəziyyətin təhlili;
- problemlərin, sualların ortaya çıxarılması;
- onların sahmana salınması, nizamlanması, yoluna qoyulması və onlara nəzarət:

Məsələn, insan resurslarının idarə edilməsi sahəsində əvvəlcə ehtiyacları nəzərdən keçiririk: hansı ehtiyaclarımızın olduğunu təsbit edib, o ehtiyaclara uyğun insanları tapırıq, onları formalaşdırırıq, effektivliyini qiymətləndiririk və bu formada proses davam edir. Risklərin idarə edilməsinə gəldikdə, əvvəlcə biznesdə olan riskləri müəyyən edir, onları kateqoriyalara görə qruplaşdırırıq. Sonra onların neytrallaşdırılması və ya aradan qaldırılması ilə bağlı tədbirlər görürük. Son mərhələdə isə bunların daimi nəzarətdə saxlanılması gəlir.



Biznesin, hər hansı bir şirkətin idarə edilməsində də əvvəlcə şirkətin bütün hədəfləri, strategiyası müəyyən edilməlidir. Daha sonra strategiyanı həyata keçirmək üçün komanda, pul, zaman, resursların hamısını tapmaq, ortaya çıxan məsələləri həll etmək, yaranmış imkanlardan effektiv istifadə olunmasına nəzarət etməklə arzuolunan nəticələrə çatmaq mümkündür. Ortaya çıxan problemləri vaxtında müəyyən etmək menecmentin daha geniş anlayışıdır.

*Müəssisələrin yaradılması və fəaliyyətinin davam etdirilməsi ilə bağlı amillər*

Müəssisənin yaradılması işin ən asanıdır. İndiki zamanda bu, iki saat ərzində həll oluna bilər. Ancaq bu gün dünyada başlayan startapların 97%-i uğursuzluqla nəticələnir. Hər hansı strukturun normal fəaliyyət göstərməsi üçün onun yaradılmasınadək görüləcək işlər çoxdur. Bizdəki bir çox bizneslərin uğursuzluğunun əsas səbəbi budur ki, kənardan hərə beynimizə bir fikir salır, biz də qonşunun, dostun, qardaşın təhriki ilə o biznesi yaratmaq fikrinə düşürük. Bunun üçün isə potensialımızı hesaba almırıq: bizdə o işi irəli apara biləcək kadr varmı, pul-büdcə yetərincədirmi, «b» planımız hazırdırmı? Ən ciddi məsələ isə bu biznesin alıcısı, bazarıdır - bazar varmı?

Bu gün Azərbaycanda bir neçə biznesi nümunə üçün deyə bilərəm ki, insanlar böyük xərclər hesabına nəhəng zavod qurublar, amma istehsal olunan məhsulun bölgədə alıcısı olmadığına görə, onu bağlamağa məcbur qalıblar. Odur ki, əvvəlcə ciddi araşdırma aparıb, bazarın ehtiyaclarına uyğun bir şey yaratmaq lazımdır. Real şərtləri, mədəniyyət, mentalitet faktorlarını nəzərə almaq lazımdır.

Hər hansı biznesə başlamazdan öncə normal biznes planı işləmək lazımdır. Bəs biznes planı, sadə dillə desək, necə olmalıdır? Biznes planı bu suallara cavab verməlidir: bazarımız hardadır, biz hardayıq, düşüncəmiz hardadır, ehtiyaclarımız nədir? Hara gedirik, hədəflərimiz, məqsədimiz nədir? 3-5 il sonra özümüzü harda görürük? Kiminlə gedirik? Komanda çox önəmlidir - bu işdə bizə kimlər kömək edəcək və necə gedirik? Resursumuz nə qədərdir, pulumuz nə qədərdir, strategiyamız necədir? Marketinqi necə təşkil edəcəyik? Təbliğatımızı necə quracağıq, problemləri necə aşacağıq? Bütün bunlar çox vacib məsələlərdir. Bu suallara cavab verən biznes planı varsa və sizi qane edirsə, o zaman işə başlamaq olar!

*Menecment, bazar və rəqabət*

İdarəetmə xüsusi məktəb tələb edir. Ən əsası budur ki, insanlarla işləməyi, zamanın, layihələrin idarə edilməsini bacarmaq lazımdır. Menecer üçün ən başlıca keyfiyyət müxtəlif metodlar və üsullardan istifadə olunmaqla müsbət nəticə əldə etməyi bacarmaqdır. Menecer öz elmi və iqtisadi biliyini müntəzəm artırmalı, yeniliyi, hər cür mütərəqqi texnika və texnologiyanı başa düşməli və müdafiə etməlidir. Yaxşı menecerin bu gün müasir texnologiyalardan istifadə edə bilmədən işləməsi mümkün deyil. Biznesdə hər dəqiqənin öz hökmü var. Vaxt, pul itkisi baxımından o qədər ciddi rəqabət gedir ki, bununla ayaqlaşmaq lazımdır. Ona görə də menecmentdəki insanlar bu işlərin hamısını bilməlidirlər.

Komandanı arxasınca aparmaq, vəziyyətdən çıxış yolu tapmaq, ən azından öz stressini idarə etmək bacarığı yaxşı lider üçün müsbət keyfiyyətlərdir. Kollektivi motivasiya etmək də bu prinsiplərə daxildir. Lider elə davranmalıdır ki, arxasınca gələnlər onun addımlarını davam etdirsinlər. Elə menecer var ki, kollektivi zirvəyə qaldırır, eləsi də var, bataqlığa sürükləyir. Bizdə hər şey fərdə bağlıdır. Dünyada isə fərd deyil, komanda faktoru əsasdır. Yəni biznesdə bir insan nə qədər ideal, mükəmməl olursa-olsun, komanda onu tamamlamırsa, o işin sonu uğursuzluğa aparır. Komandanın mükəmməl olması isə menecmentin başqa bir funksiyasıdır. Lider nə qədər bacarıqlı olarsa, ətrafına da bir o qədər peşəkar komanda yığacaqdır.

*İstehsal, keyfiyyət və metodlar*

Hər bir addımın arxasında ciddi araşdırma dayanmalıdır. İstehsal və fəaliyyətin effektivliyi hansısa vacib prinsiplərə və metodlara bağlıdır. Hər hansı işin başlanğıcında «düşündüm, qərar verdim, başladım» tendensiyası yolverilməzdir. Büdcə, resurslar, ortaya çıxa biləcək problemlər, onların həlli yolları, qanunvericiliyin təhlili, bazarlar, müştəri münasibətləri - bütün bunlar əvvəlcədən düşünülməlidir. İstehsalı nəzarətdə saxlamaq üçün müəyyən mexanizmlərdən istifadə edilməlidir. Bu gün dünyanın əksər ölkələrində daxili audit, təftiş, nəzarət sistemləri, risklərin idarə olunması şirkətlərin fəaliyyətlərinin əsas tərkib hissələridir. Çox yanlış olaraq bizdə audit müfəttiş işi kimi qiymətləndirilir. Auditor problemləri görməlidir, yalnız görməklə kifayətlənməməli, həll yollarını axtarıb tapmalı, rəhbərliyə təqdim etməlidir.

Bu gün dünyanın nəhəng şirkətlərinin ətrafında bir komanda kimi çox təcrübəli hüquqşünasları, məsləhətçiləri, müşavirləri görmək olar. Bu, bölüşmədir, təcrübə mübadiləsidir. Komandada «mən» ifadəsi qəbuledilməzdir, hər zaman «biz» olaraq işə başlamaq, birliyə nail olmaq lazımdır. Müəyyən bir mərhələdən sonra maliyyə - maliyyəsini, insan resursları - insan resurslarını, menecer şirkəti idarə edə biləndə, işlər uğur istiqamətində irəliləyəcək...

*Hazırladı:*
**F. İKRAMQIZI**

# Azərbaycanın ixrac potensialı geniş təbliğ olunur

Bakı Biznes Mərkəzində «Made in Azrebaijan» brendinin təbliği sahəsində həyata keçirilən tədbirlər, eləcə də Almaniyanın Köln şəhərində «ANUGA» Beynəlxalq Ərzaq Sərgisinin yekunlarına həsr olunmuş mətbuat konfransında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri Rüfət Məmmədov Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, iqtisadiyyatın diversifikasiyası, özəl sektorun gücləndirilməsi, rəqabətədavamlı qeyri-neft məhsullarının istehsalı, ixracatçılara yaradılmış əlverişli şərait, ixracın genişləndirilməsi, xarici ölkələrə təşkil edilən ixrac missiyaları, «Made in Azerbaijan» brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində görülən işlər barədə məlumat verib.

Sərginin keçirildiyi 5 gün ərzində Azərbaycanın 20-dən çox şirkətinin məhsulları, xüsusilə nar və nar şirəsi sərgi ziyarətçiləri və xarici şirkətlər tərəfindən maraqla qarşılanıb. Tədbir çərçivəsində «Azqranata» şirkəti İsrailə 20 ton nar şirəsi ixracına dair müqavilə imzalayıb, Qətərə «+more» markası ilə müxtəlif meyvə şirələrinin ixracına dair ilkin razılıq əldə edilib. «Mars FK» şirkəti İsveçrə və Monqolustanın satış şirkətləri ilə apardığı danışıqlar nəticəsində bu ölkələrə ilkin olaraq 100 ton və 18 ton nar ixracına dair sifarişlər alıb, «Aqro-Azerinvest» MMC isə Almaniyaya «Goldenes Baku» markalı nar şərabının ixracına dair razılıq əldə edib. Bundan başqa, «Sirab» şirkəti




Səudiyyə Ərəbistanına mineral suların ixracına dair danışıqlara başlayıb. Xüsusi emal üsulu ilə qurudulmuş xurma istehsal edən «Bal Xurma» şirkəti tərəfindən Argentina, Niderland, İtaliya və Yunanıstanda otellərin qida təchizatı ilə məşğul olan bir sıra şirkətlərlə danışıqlar aparılıb və ixraca dair ilkin razılıqlar əldə edilib. Azərbaycanın qənnadı məmulatları istehsalçısı olan «Konfiron» MMC isə Rumıniyaya ixraca dair danışıqlar aparıb.

AZPROMO-nun vitse-prezidenti Yusif Abdullayev sərginin qida və içkilər bölməsində «Made in Azerbaijan»ın vahid ölkə stendləri ilə təmsil olunduğunu bildirib. İqtisadiyyat Nazirliyinin dəstəyi, AZPROMO-nun təşkilatçılığı ilə bu bölmələrdə Azərbaycan şirkətlərinin meyvə şirələri, müxtəlif növ şərabları və təbii mineral suları, meyvə, fındıq, qənnadı məmulatları, çay, quru meyvə və s. məhsulları nümayiş etdirilib. Azərbaycan stendində sərgi ziyarətçilərinə ixracatçı şirkətlərimizin keyfiyyətli və rəqabətqabiliyyətli məhsulları, ölkəmizin biznes və investisiya imkanları barədə geniş məlumat verilib.

**FƏXRİYYƏ**

# Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «**Onlayn rejimdə**» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə «**Oflayn rejimdə**» tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin oktyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin oktyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Avstraliyada işəgötürənlərin vergi yükü artırılacaq

Avstraliyada fəaliyyət göstərən işəgötürənlər Qərbi Avstraliyaya əməkhaqqından tutulan vergi şəklində 345 milyon Avstraliya dolları (1 AUD=0,73 USD) ödəməli olacaqlar.

Liberal Partiya büdcə tarazlığının bərpası üçün atılan bu addımın qarşısını almamaq qərarına gəldikdən sonra belə bir vəziyyət yaranmışdır. Avstraliyanın ən iri işəgötürənlərinin payına bu məbləğin ən azından 20 faizi düşəcək.

Liberal Partiyanın rəhbəri Mayk Naxan bildirmişdir ki, qızılçıxarma sənayesinin təmsilçiləri istisna olmaqla vergilərin artımı ilə üzləşəcək iri şirkətlər bu addımın atılmasının qarşısını almaq üçün hakimiyyət daxilində lobbiçilikdən istifadə etməmişdir. Qızıl mədənlərini işlədən şirkətlər vergilərin artımının planlaşdırılmasına təsir göstərə bilmək üçün geniş kampaniya keçirmişdir (vergi sahəsində dəyişiklik bu sənaye sektorunu təmsil edən işəgötürənlərdən 390 milyon dollar məbləğində əlavə vəsait ödənilməsini tələb edir).

M.Naxanın sözlərinə görə, iri işəgötürən şirkətlər Qərbi Virciniyanın ticarət-sənaye palatasının xəbərdarlığına belə məhəl qoymamışdır: palatanın bəyanatında deyilir ki, iri vergi ödəyicilərinin vergi yükünün artırılması elə ilk ildəcə 1300 iş yerinin ixtisara düşməsi ilə nəticələnəcək.

## Honkonq kiçik şirkətlərlə bağlı vergi güzəştlərinə yenidən baxır



Honkonq administrasiyasının baş icraçı direktoru Kerri Lamın sözlərinə əsasən, hökumət nisbətən kiçik və köməyə ehtiyacı olan şirkətlərdən tutulan gəlir vergisinin dərəcəsini iki il bundan əvvəl keçirilmiş seçkilərdən öncə vəd edilmiş rəqəmdən də aşağı salmağı planlaşdırır. Kiçik şirkətlərin vergi yükünün yüngülləşdirilməsini, eləcə də sahibkarlığın və innovasiyaların təşviqini nəzərdə tutan qanun layihəsinə əsasən, qazanılan vəsaitdən tutulan 10 faizlik mənfəət vergisi dərəcəsi şirkətin gəlirinin ilk 2 milyon Honkonq dollarına (265 min ABŞ dolları) tətbiq olunacaq.

Xanım K.Lam yerli siyasətçilərə müraciət edərək bildirmişdir ki, qanun layihəsinin tətbiqi ilə gəlirin ilk 2 milyon Honkonq dolları üçün vergi dərəcəsi 8,25 faizə endiriləcək, bununla yanaşı, istənilən əlavə mənfəət üçün vergi hazırkı səviyyədə - 16,5 faiz səviyyəsində saxlanılacaq. Elmi-tədqiqat və təcrübə-konstruksiya işləri üzrə ilk 2 milyon Honkonq dolları məbləğində xərclər üçünsə vergi çıxılmasının dərəcəsi 300 faiz olacaq. İstənilən digər əlavə xərclər üçün 200 faizlik vergi çıxılması nəzərdə tutulur.

«Güzəştlərin kiçik və orta müəssisələrə yönəldilməsini təmin etmək üçün biz elə məhdudiyyət qoyuruq ki, müəssisələrin hər bir qrupu ən aşağı vergi dərəcəsindən fayda götürə bilmək üçün bir müəssisə təyin edə bilsin», - xanım Lam bildirmişdir.

Bu iki təşəbbüsün həyata keçirilməsi üçün qanun layihəsi təsdiq üçün Qanunvericilik Şurasına təqdim ediləcək.

## Yunan şirkətləri Kiprə daşınır

Yunanıstanın «Kafimerini» nəşrinin məlumatına əsasən, son zamanlar çoxlu sayda şirkət xeyli yüksək olan vergiləri ödəməkdən yayınmaq məqsədilə öz aktivlərinin böyük hissəsini Yunanıstan yurisdiksiyasından Kipr yurisdiksiyasına köçürməyə başlamışdır. Buna oxşar vəziyyət özünüməşğul əhali arasında da müşahidə olunmaqdadır: fərdi sahibkarlar, həkimlər, hüquqşünaslar, analitiklər kütləvi şəkildə Kiprdə öz ofislərini açmışlar. Yunanıstanın vergi rezidentləri əndazəsiz vergilərin sahibkarlıq təşəbbüslərinə qənim kəsildiyindən şikayət edirlər: artıq insanlar üçün ölkədə bizneslə məşğul olmaq sərfəli deyildir. Məsələn, Kiprə köçmüş vəkillərdən biri demişdir ki, 180 min avro məbləğində illik qazancından gəlir vergisi və digər vergilər kimi 71 min avro ödəyir. Sosial təminat fondlarına ödənişlər də nəzərə alınanda bu məbləğ 120 minə qalxır. Kiprdə ödəməli olacağı vergiləri hesablayarkən aydın olmuşdur ki, oradakı ödənişlərin ümumi məbləği cəmi 30 min avro təşkil edir.

Bütün bunlara baxmayaraq, Yunanıstanın rəsmi statistikası öz baş ofislərini Kiprə köçürmüş şirkətlərin sayı haqqında hələ informasiya verməmişdir.

## Rusiyada kiçik biznesin vergi yükü artırılacaq

Hökumət gələn ildən daha çox kiçik biznesdə tətbiq olunan müvəqqəti gəlir üçün vahid verginin məbləğini artıracaq. Rusiyada iki il bundan əvvəl kiçik biznes üçün vergi dondurulmuşdu, indi isə Nazirlər Kabineti inflyasiyaya uyğun olaraq indeksasiya aparmaq qərarına gəlmişdir.

İqtisadi İnkişaf Nazirliyi 2018-ci ildə müvəqqəti gəlirlər üçün vahid verginin məbləğini 3,9 faizə qaldırmağı təklif etmişdir. Artım əmsal-deflyatorun 1,798-dən 1,868-ə qaldırılması hesabına olacaq. 2017-ci ilin nəticələrinə görə inflayasiyanın 3,2 faiz, 2018-ci ildə isə 4 faiz təşkil edəcəyi gözlənilir.

Kiçik biznesə aid müvəqqəti gəlir üçün vahid vergi, demək olar ki, bütün vergilər üçün alternativ təşkil edir, lakin onun tətbiqinə pərakəndə satış, ictimai iaşə, məişət xidmətləri kimi bir neçə sahədə icazə verilir. Vergi bazası üçün müvəqqəti gəlir götürülür, bu göstərici işçilərin sayına və ya ərazinin sahəsinə, eləcə də daha iki əmsala vurulmaqla konkret fəaliyyət növünün baza gəliri hesab edilir.

«Rusiyanın dayaqları» komitəsinin vergilər üzrə sədr müavini Sergey Zelyonov bildirmişdir ki, müvəqqəti gəlir üçün vahid vergi kiçik biznesdə ən çox yayılmış və ən uğurlu vergi rejimlərindəndir. Lakin bu verginin hər hansı şəkildə artımına kiçik müəssisələrin reaksiyası həssas olacaq.

## BVF zənginlərdən tutulan gəlir vergisini artırmağa çağırır

Beynəlxalq Valyuta Fondunun (BVF) hazırladığı məruzədə hökumətlərə yüksək qazanclı şəxslərə münasibətdə səmərəli vergi siyasəti yürütmək tövsiyə edilmişdir. Tənzimləyici orqanın sənədində qeyd olunmuşdur ki, son on il ərzində OECD ölkələrində varlı insanlardan tutulan vergilərin əhəmiyyətli şəkildə azaldıldığı müşahidə olunmaqdadır: 1981-ci ildə zənginlərdən tutulan gəlir vergisinin dərəcəsi 62 faiz olduğu halda, 2015-ci ildə bu göstərici 35 faizə enmişdir.

BVF-nin Vergi departamentinin rəhbəri Viktor Qaspar demişdir: «Yüksək gəlirlərin vergiyə cəlb olunması dövlətin maliyyə sistemində resursların yenidən paylanmasının əsas mexanizmlərindən biridir». Onun sözlərinə görə, hətta indiki şəraitdə proqressiv vergi sistemi öz aktuallığını saxlayır. Bununla belə, kasıb ölkələr üçün əsas vəzifə varlı vətəndaşların vergiyə cəlb edilməsi deyil, ümumi vergi bazasının yaradılmasıdır.

BVF-nin açıqladığı məruzədə bütün vətəndaşlar üçün universal baza gəlirinin tətbiq olunması, eləcə də aztəminatlı ailələr üçün səhiyyə və təhsil xərclərinin artırılması kimi maliyyə tövsiyələri də vardır.

## Norveçdə elektromobillər üçün bəzi güzəştlər götürülə bilər

Hökumət dairələri tərəfindən «Tesla Model X» kimi çəkisi 2 tondan artıq olan elektromobillər üçün müəyyənləşdirilmiş bəzi vergi güzəştlərinin ləğv edilməsi ilə bağlı təklif irəli sürülmüşdür. 2018-ci il üçün hazırlanmış büdcə layihəsinə əsasən, hökumət «çəkisi iki tondan ağır olan elektromobillərin avtomibil nəqliyyatının qeydiyyatı vergisinə cəlb edilməsini nəzərdə tutur».

«Elektromobillər əvvəlki kimi ənənəvi yanacaqla işləyən avtomobillərlə müqayisədə əhəmiyyətli dərəcədə üstünlüyə malik olacaqlar, bundan əlavə, hökumət elektromobillər üçün başqa vergi güzəştləri tətbiq etmək niyyətindədir - elektromobil sahibləri təkrar qeydiyyat və nəqliyyat vasitəsinin sığortası vergilərindən azad olunacaqlar», - büdcə layihəsi ilə bağlı təklifdə qeyd edilmişdir.

Norveçin kütləvi informasiya vasitələrinin yazdığına əsasən, çəkisi 2 tondan artıq olan elektromobillər üçün vergi güzəşti ləğv edildikdən sonra «Tesla X» markalı maşının qiyməti 8850 ABŞ dollarına çatacaq.

## Rusiyada tütün əleyhinə yeni konsepsiya hazırlanıb

Ölkənin tütün əleyhinə proqramı siqaret çəkənlərin nisbətinin indiki 33 faizdən 25 faizə salınmasını nəzərdə tutur. Hər il Səhiyyə Nazirliyi bu proqramın müddəalarını təkmilləşdirir.

Oktyabr ayında hökumət yeni bir konsepsiyanı ictimaiyyətə açıqlamışdır. Bu sənədə əsasən, siqaret çəkənlər ekologiya vergisi ödəməli olacaqlar. Layihə 2022-ci ilə qədər uzadılacaq. Hökumətin mövqeyinə görə, layihə yalnız siqaret çəkənləri deyil, ümumilikdə xalqın mənafeyini nəzərə alır. Elektron siqaret, sulu qəlyan kimi bəzi məhsullara isə tam qadağa qoyula bilər. Bundan əlavə, dövlət müəssisələrinin siqaret çəkmək üçün yer təyin etmək hüququnun da ləğv edilməsi nəzərdə tutulmuşdur. Konsepsiyanın müddəalarında göstərilir ki, tütün məhsullarının satıcıları və istehsalçıları üçün istənilən güzəştin ləğv edilməsi nəzərdə tutulmuşdur.

Rusiya Federasiyasının səhiyyə naziri V.Skvortsovun sözlərinə əsasən, bu addımın atılması sayəsində büdcəyə 800 milyard rubl (23,58 milyard manat) vəsait cəlb etmək, ən əsası da 2 milyon insanın həyatını xilas etmək mümkün olacaq.

## krossvord



**Yuxarıdan aşağı:** 1.ABŞ-ın Minnesota ştatında yaşayış məntəqəsi; 2.Tərtər rayonunda kənd; 3.Ekvatorial bürc; 4.Yundan toxunulmuş üst geyim; 5.Bizim eradan 300 il əvvəl mövcud olmuş şəhər; 6.Hökumətin büdcə xərcləri və vergi sistemi ilə bağlı tənzimləyici siyasəti; 9.Kimyəvi element; 13.Simli musiqi aləti; 15.Avarlı və yelkənli gəmilərdə döyüş üsulu; 16.Tarixi Azərbaycan ərazisi. İrəvan xanlığında mahal; 17.Tank əleyhinə müdafiə xəndəyi; 18.Norveç dənizi akvatoriyasında neft-qaz yatağı; 20.Moskvada dəfn olunmuş türk şairi, yazıçı, rəssam, ssenarist və dramaturq, ictimai xadim, Beynəlxalq Sülh Mükafatı laureatı (1950); 21.VIII-X əsrlərdə vikinqlərin ticarət gəmisi.

**Soldan sağa:** 1.Rus yazıçı, «Polad necə bərkidi» romanının müəllifi; 5.Vulkanik küldən yaranan, maqma mənşəli dağ süxuru; 7.Romada ən yüksək rahib rütbəsi; 8.İdman növü; 10.Ukraynanın ən çox məhsul istehsal edən qənnadı fabriki; 11.Kütlə qabağında çıxış edən artistlər üçün tikilən açıq səhnə; 12.Yalnız; 14.Öz həcmi, diapazon böyüklüyü, imkanları və tembr rəngarəngliyinə görə seçilən klavişli-nəfəsli musiqi aləti; 19.İştirakçı aktyorlardan birinin şərəfinə təşkil edilmiş teatr tamaşası; 21.Adətən, sirk tamaşalarında iştirak edən komik artist; 22.Dominikan Respublikasının paytaxtı; 23.Səbail rayonunda qəsəbə; 24.ABŞ-ın Alyaska ştatında çay; 25.Dnepr çayının sahilində yerləşən şəhər.



*Avarlı və yelkənli gəmilərdə döyüş üsulu*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Dekada; 2.Karavay; 3.Trans; 4.Oreqon; 5.İmran *(Qasımov)*; 6.İntern; 9.Vern *(Jül)*; 13.Uran; 15.Merinos; 16.Massiv; 17.Milord; 18.Diktor; 20.İlyas *(Əfəndiyev)*; 21.Həbib *(İsmayılov)*. **Soldan sağa:** 1.Dekstroza; 5.İki; 7.Karfagen; 8.Krit; 10.Davos; 11.Oleandr; 12.Uyğur; 14.Anime; 19.Amirani; 21.Harri *(Porter)*; 22.Saya; 23.Kombinat; 24.Vis; 25.Vedibasar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

## idman

# Gənc cüdoçularımızın böyük uğuru

**Dünya birinciliyində iki qızıl və iki gümüş medal qazanan cüdo üzrə Azərbaycan millisi kişilərin fərdi yarışlarında birinci yeri tutub**



Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən gənc cüdoçular arasında dünya birinciliyində fərdi yarışlar başa çatıb. Azərbaycan millisi mundialın sonuncu günündə daha bir uğura imza atıb. Azərbaycan Cüdo Federasiyasından bildiriblər ki, 100 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Zelim Kotsiyev finala gedən yolda Koreya, Özbəkistan, Avstriya və Tacikistandan olan rəqiblərinə qalib gəlib. Həlledici qarşılaşmada Z.Kotsiyevin rəqibi erməni əsilli Rusiya idmançısı Armen Adamyan olub. Cüdoçumuz bu görüşdə də əzmkar mübarizə apararaq qələbə qazanıb. Zaqrebdə Azərbaycan cüdoçusuna dünya birinciliyinin qızıl medalı təqdim olunub və onun şərəfinə dövlət himnimiz səsləndirilib, bayrağımız qaldırılıb.

Bununla da millimiz kişilərin fərdi yarışlarında bütün rəqiblərindən daha yaxşı nəticə göstərərək birinci yeri tutub. Azərbaycan cüdoçuları Yaponiya, Rusiya, Gürcüstan, Braziliya, Almaniya, Özbəkistan, Türkiyə, Fransa, İtaliya və digər milli komandaları qabaqlayıblar. Ümumi komanda hesabında isə gənclərimiz yalnız Yaponiyadan geri qalaraq ikinci olublar.

Xatırladaq ki, dünya çempionatında Hidayət Heydərov (73 kq), Zelim Kotsiyev (100 kq) qızıl, Natiq Qurbanlı (55 kq), Kərəmət Hüseynov (60 kq) gümüş və Nəzakət Əzizova (52 kq) bürünc medal əldə ediblər.

Qeyd edək ki, 83 ölkədən 590 idmançının (346 oğlan, 244 qız) mübarizə apardığı birincilikdə Azərbaycan milli komandası 15 cüdoçu (10 oğlan, 5 qız) ilə təmsil olunub.

# Dörd taekvondoçumuz ilk onluqda...

**Dünya Taekvondo Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub. Siyahıda yığmamızın dörd taekvondoçusu yer alıb. Aktivində 443,16 xalı olan «Rio-2016» Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionumuz Radik İsayev 80 kiloqramdan yuxarı çəki dərəcəsində ilk sırada yer alır. Hesabında 472,36 xal olan dünya çempionumuz Milad Beiqi Harçeqani (80 kq) də reytinqdə birincidir.**





Altmış səkkiz kiloqram çəki dərəcəsində «Bakı-2015»in və İslamiadanın çempionu Ayxan Tağızadə 212,20 reytinq xalı ilə altıncı pillədədir. Millimizin üzvü avqust reytinqi ilə müqayisədə üç pillə irəliləyib. Qadınlardan ibarət millimizin üzvü Fəridə Əzizova da (67 kq) ilk onluqdadır. Onun aktivində 213,14 reytinq xalı var.

Qeyd edək ki, reytinq xalları Dünya Taekvondo Federasiyasının təşkil etdiyi yarışlarda idmançıların aktivinə yığılan xallara əsasən verilir. Taekvondo qaydalarına görə, 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarınadək reytinq xalları sayəsində cədvəldə ilk altılıqda olacaq idmançılar olimpiadaya birbaşa vəsiqə qazanacaqlar.

# İdmançımız qələbə seriyasını sıralayır



Azərbaycanın triatlon yığmasının üzvü Rostislav Pevtsov Honq-Konqda təşkil olunan sprint üzrə açıq Asiya kuboku yarışlarında qızıl medal qazanıb. İdmançımız 750 metrlik su məsafəsini 9 dəqiqə 33 saniyəyə başa vurub, ardınca isə 20 kilometrlik velodistansiyanı 29 dəqiqə 14 saniyəyə qət edib. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını R.Pevtsov 15 dəqiqə 9 saniyə nəticə ilə başa vurub. Ümumi hesablamada R.Pevtsov 56 dəqiqə 39 saniyə vaxt göstəricisi ilə birinci yerə layiq görülüb. Qadınların mübarizəsində isə komandamızın üzvü Kseniya Levkovskaya 1 saat 4 dəqiqə 29 saniyəlik nəticə ilə dördüncü olub.

Xatırladaq ki, cari mövsümdə R.Pevtsov Las-Palmasda keçirilən Avropa kubokunun qalibi olub, Rabat şəhərində təşkil olunan açıq Afrika kuboku yarışlarında qızıl medal qazanıb. İdmançımız, həmçinin, Çinin Çenqdu şəhərində keçirilən Dünya kubokunda gümüş medala sahib olub, Avropa kuboklarının ümumi hesabında isə gümüş medal qazanıb.

# Ronaldudan hər kəsə insanlıq dərsi...



Futbol üzrə Portuqaliya millisinin və İspaniyanın «Real Madrid» komandasının hücumçusu Kriştianu Ronaldu növbəti xeyirxah addımı ilə pərəstişkarlarını növbəti dəfə sevindirib. Humanizmliyi ilə tanınan ulduz futbolçu ölkəsində baş vermiş yanğın nəticəsində xəsarət alan 300-dən çox şəxsin müalicə xərclərini ödəməyi boynuna götürüb. Qeyd edək ki, Portuqaliyanın Pedroqau Qrande regionunda baş vermiş yanğın nəticəsində 62 nəfər həlak olub və xeyli sayda insan xəsarət alıb. Xatırladaq ki, portuqaliyalı futbolçu bir müddət əvvəl məlum münaqişədən əziyyət çəkən fələstinlilərə 1 milyon avrodan çox maliyyə yardımı etmişdi.

Yeri gəlmişkən, oktyabrın 23-də FİFA ilin ən yaxşı oyunçusunun adını açıqlayıb. Kriştianu Ronaldu 7-ci dəfə bu yüksək ada layiq görülüb.

## mozaika

### texnologiya




Çin alimləri insanın üzünü gizlətdikdə belə yerişinə görə təyin edən yeni biometrik identifikasiya texnologiyası hazırlayıblar. Sistemin işləməsi üçün hədəfdən 50 metr məsafədən uzaq olmayan kamera lazımdır. Texnologiya ritm, sürət və hərəkətin digər xüsusiyyətləri daxil olmaqla, yerişin unikal «rəsmi»nə əsaslanır.

Çin Elmlər Akademiyası nəzdində Avtomatlaşdırma İnstitutunun tədqiqatçısı Xuan Yunçjen bildirib ki, yeni texnologiya gözün qüzehli qişasının skanerindən 10 dəfə daha sürətli işləyir. Tanımanın sürəti 200 millisaniyəni ötmür. Bu, insanın gözünü qırpmasından (300-400 ms) daha sürətlidir. Alqoritm 1000 kvadratmetr sahədə minədək insanı müəyyən edir və əhalisi sıx olan şəhərlərin sakinlərinin sayının hesablanmasına imkan verir. Biometrik identifikasiya sistemləri Çinin bütün ərazisində tətbiq edilir. Ölkənin dörd şəhərində yol kəsişmələrində yol hərəkəti qaydalarını pozan piyadaları aşkarlayan kameralar quraşdırılıb.

Xatırladaq ki, bu yaxınlarda sifətin tanınması funksiyasına malik kameralar Asiyada ən böyük pivə festivalına gəlmiş axtarışda olan 25 vətəndaşın saxlanılmasına kömək edib.

### ekologiya

# Meşələri qırmaqdan imtina edən ilk ölkə

Rəsmən «bir ağac belə kəsilməsin» siyasəti həyata keçirilən Norveçdə ağacları qoruyub saxlamaq üçün palma yağından və meşələrin qırılması ilə nəticələnən digər məhsulların istehsalından imtina edilib. Bu ölkə uzun illərdir ki, meşələrin qorunması üzrə davamlı siyasət yürüdür. Norveç hökuməti 2015-ci ildə Amazon meşələrinin olduğu Braziliyaya 1 milyard dollar sərmayə yönəldib. Bu, 85 min kvadratkilometr tropik meşələrin qorunmasına kömək edib. Ümumiyyətlə, son on ildə Norveçin və digər dövlətlərin dəstəyi sayəsində Braziliyanın Amazon meşələrində ağacların qırılması təxminən 75 faiz azalıb. 2011-ci ildən 2015-ci ilədək Norveç Cənubi Amerikanın digər ölkəsi Qayanaya 250 milyon dollar ayırıb.



Üç il əvvəl Norveç Böyük Britaniya və Almaniya ilə dünyada meşələrin qırılmasının azaldılması istiqamətində səyləri birləşdirmək barədə razılığa gəlib. Hazırda ölkədə «meşə mənşəli» bir məhsul belə alınmır. Ekoloqların izah etdiyi kimi, kağızı tullantıların emalı nəticəsində əldə etmək mümkündür, yanacaq və tikinti materialları üçün digər mənbələr mövcuddur, palma yağının zəruriliyi isə tamamilə şübhə altındadır. Bundan başqa, dövlət pensiya fondu öz aksiya portfelindən meşə massivlərinə zərər vuran sellüloz-kağız, kömür və digər şirkətləri çıxarıb.

Dünya Vəhşi Təbiət Fondunun məlumatına görə, planetimiz ildə 120-150 min kvadratkilometrədək meşə ərazisindən məhrum olur. Bu, hər dəqiqədə 48 futbol meydanının yoxa çıxması deməkdir. Meşələrin qırılması torpağın eroziyaya uğramasını çoxaldır, suyun dövriyyəsini pozur və milyonlarla insanın həyat fəaliyyətinə mənfi təsir göstərir.

### sağlamlıq

# Dünyanı daha aydın görmək üçün...

Dünyanın gözəlliklərinə tamaşa etmək və ondan zövq almaq böyük xoşbəxtlikdir. Göz nurunu itirənlər və görmə qabiliyyəti zəif olanlar həmin xoşbəxtlikdən məhrumdurlar. Ona görə də özünü dünyanın minbir gözəlliyindən məhrum etməmək üçün ən düzgün yol gözləri qorumaqdır.



Müasir dövrdə görmə zəifliyindən əziyyət çəkməyənlər çox azdır. İstənilən sivil ölkənin 21 yaşdan yuxarı olan sakinlərinin hər onundan doqquzu həmin problemdən əziyyət çəkir. Aydın məsələdir ki, yaş artdıqca görmə zəifliyi daha da dərinləşir. Yaşı 40-ı ötənlər arasında isə görmə problemi olmayanlara ümumiyyətlə nadir hallarda rast gəlinir. Oftalmoloqlar görmə qabiliyyətini yaxşılaşdırmaq, görmə itiliyini artırmaq və göz əzələlərini möhkəmləndirmək üçün nəzərdə tutulan müalicəvi gimnastika və müxtəlif dərman vasitələri məsləhət görürlər.

Ahıl yaşlarda görmə qabiliyyətində yaranmış zəifliyi azaltmaq üçün gicitkəndən hazırlanmış şorba, qutab və kükü kimi yeməklərlə qidalanmaq lazımdır. Yetişmə mərhələsində olan yerkökünün yaşıl hissəsi təzə halda yeyiləndə və ya salatlara qatılanda gözün görmə qabiliyyətində yaxşılaşdırmaya səbəb olur. Onun yaşıl hissələrini qurudaraq ədviyyat kimi də istifadə etmək olar. Qaragilə, quşüzümü, soğan, sarımsaq, badam, qara gilas, cəfəri, xiyar, şüyüd, kök, çuğundur və kəraviz kimi meyvə-tərəvəzlər gözün görmə qabiliyyətini yaxşılaşdırır. Qida rasionunda əsasən tərkibi A, B qrup vitaminləri ilə zəngin olan ərzaqlardan istifadə edilməlidir.

**Görmə qabiliyyətinin yaxşılaşdırılması üçün bir sıra xalq təbabəti üsulları da var:**

Təzə yığılmış keşniş xırdalanır və gündə 1-2 dəfə 10-20 dəqiqə gözlərin üstünə qoyulub saxlanılır.

- Toyuq korluğu zamanı gündə iki dəfə yeməkdən sonra bir qədər suda həll edilmiş 1 damcı dəmrovotu şirəsi içmək lazımdır.
- Kələm yarpaqları təmiz yuyularaq qaynadılır, soyuyandan sonra yarpaqları gündə 3-4 dəfə yeyilir, qaynadıldığı su içilir.
- Kartofun üzərində yaranan cücərtilər toplanaraq qurudulur, alınan xammaldan 1 xörək qaşığının üzərinə 1 stəkan 40 faizli spirt əlavə edilir, bir sutka saxlanılır, süzülür və gündə üç dəfə yeməkdən sonra 1 çay qaşığı qəbul edilir.
- Gülümbahar və göyçiçəyin dəmləmələri islatma şəklində göz qapaqlarının üzərinə qoyulanda göz yorğunluğunu aradan qaldırır.
- Yaxındangörmə zamanı qurudulub üyüdülmüş yemişan meyvələri 1:1 nisbətində balla qarışdırılaraq gündə 3 xörək qaşığı qəbul edilir.

### maraqlı

# Yarasağaldan yapışqan

Qədim bir mahnıda «Yarım gələnə qaldı, yaramın sağalması» deyilir. Təbii ki, burada söhbət qəlb yarasından gedir. Cismani yaraya gəldikdə isə...

Çin texnoloqlarının hazırladıqları maddə onun ən qısa müddətə sağalmasını təmin edir. «MeTro» adı verilən yeni yapışqan qanaxmanı dayandıraraq yaranı sürətlə sağaldır.

Yapışqanın tərkibinə ultrabənövşəyi işığın təsiri altında orqan toxumaları ilə müqayisədə daha möhkəm materiala çevrilən zülallar daxildir.

«MeTro» yapışqanını yaraya vurduqda bir dəqiqə ərzində tədricən sorulur və parçalanmış toxumaları bərpa edərək birləşdirir. Yapışqanı fövqəladə hallar, avtomobil qəzaları və yaxud döyüş əməliyyatları zonalarında istifadə etmək olar.

Alimlər hələlik materialı laboratoriya donuzu üzərində sınaqdan keçiriblər.

**Müdriklər deyib ki...**



***«İnsanın ən böyük sərvəti ağıldır, ağılsızlıq möhtaclıqdır».***

*Firdovsi (935-1020)*